Bu bir xalq qəzetidi

ƏDALƏT

## Nazir: Ermənistan tərəfindən əməli addımlar müşahidə etmirik



**Azərbaycan, Rusiya və Ermənistan tərəfindən 10 noyabr 2020-ci il tarixdə imzalanan üçtərəfli bəyanatda olan vacib məsələlərdən biri də ölkələr arasında kommunikasiyaların açılmasıdır. Azərbaycan bu məsələdə çox konstruktiv mövqe sərgiləyir. Ermənistan tərəfindən isə bu istiqamətdə əməli addımları müşahidə etmirik.**

Bunu xarici işlər naziri Ceyhun Bayramov xarici işlər naziri Azərbaycanda səfərdə olan Qətərin xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman Al-Tani ilə birgə mətbuat konfransında deyib.

Nazir bildirib ki, hazırkı dövrə qədər aparılan danışıqların konkret nəticə verməməsi təəssüf doğurur:

"Hesab edirik ki, bölgədə normallaşmaya töhfə verəcək bir prosesin ləngiməsi düzgün yanaşma deyil.

Biz burada daha konkret addımların atılmasını və nəticələrin əldə olunmasını gözləyirik. Son zamanlar Ermənistan siyasi rəhbərliyi tərəfindən bu istiqamətdə bəzi pozitiv mesajlar verilməsinə baxmayaraq, hələ ki, biz əməli addımları müşahidə edə bilmirik".

## Mövlud Çavuşoğlu Azərbaycanın Müstəqilliyinin Bərpası Günü ilə bağlı paylaşım edib



**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu 18 Oktyabr - Azərbaycanın Müstəqilliyinin Bərpası Günü münasibətilə "Twitter" hesabında paylaşım edib. Paylaşımda deyilir:**

"Qardaş Azərbaycanın müstəqilliyini yenidən qazanmasının 30-cu ili Qarabağın işğaldan azad olunması ilə daha da gözəldir. Üç rəngli bayrağınla çox yaşa Can Azərbaycan! "

Qeyd edək ki, Azərbaycanda 18 Oktyabr Müstəqilliyin Bərpası Günü kimi qeyd edilir.

## *Ötən həftə 140 hektardan çox ərazi minadan təmizlənib*

**ANAMA işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı açıqlayıb.**



ANAMA-dan verilən məlumata görə, oktyabrın 11-dən 16-na qədər Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda 140 piyada əleyhinə, 27 tank əleyhinə mina və 1146 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb. 141,9 hektar ərazi mina və PHS-lərdən təmizlənib. Qeyd edək ki, ötən ay 634 hektar ərazi mina və PHS-lardan təmizlənmişdi.

## ABŞ-ın altı şəhərində "Azərbaycan Günü" elan edilib



**ABŞ-ın Şimali Karolina ştatının altı şəhərində "Azərbaycan Günü" elan edilib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, ştatın Roli, Şarlotta, Durham, Keri, Fayetville və Apeks şəhərlərində 18 Oktyabr - Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümü münasibətilə bəyannamələr qəbul edilib. Bəyannamələri Apeks şəhərinin meri Jak Jilber, Durham şəhər meri Stiv Sevel, Şarlotta şəhər meri Aleksandr Layles, Roli şəhər meri Meri-Ənn Bolduin, Keri şəhər meri Harold Veyinbrext imzalayıblar. Bəyannamələrdə bildirilib ki, Amerika Birləşmiş Ştatları müasir Azərbaycan Respublikasının (Naxçıvan və Qarabağ bölgəsi daxil olmaqla) ərazi bütövlüyünü, dövlət suverenliyini və müstəqilliyini qeyd-şərtsiz dəstəkləyir. Amerika-Azərbaycan Dostluq Təşkilatının Şimali Karolinada mədəni müxtəlifliyin zənginliyinə, iqtisadi rifaha töhfə verdiyi, son 30 il ərzində dünyada təxminən bir milyon soydaşımızın və Azərbaycan əsilli amerikalıların 18 oktyabr tarixini Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpası Günü kimi qeyd etdikləri, ulu babalarının Azərbaycanda və Cənubi Qafqaz regionunda azadlıq və demokratiyanın yayılmasında misilsiz xidmət göstərdiklərinə böyük ehtiramla yanaşdıqları nəzərə çatdırılıb.

*Vüqar Abbasov*
*"Ədalət"in Niderlandda xüsusi müxbiri*

## Məmləkət xatirələri

Bax: səh.3

## PREZİDENT: "O TORPAQLAR SAHİBLƏRİNƏ PAYLANILACAQ"



**Hazırda işğaldan azad olunmuş ərazilərdə ən çətin iş minalardan təmizlənmədir ki, onu da ANAMA və Milli Ordumuz lazımınca həyata keçirirlər. Təkcə Füzuli rayonunda 2500 hektar torpaq minalardan tam təmizlənib və həmin ərazilərdə müxtəlif şirkətlər əsasən taxıl əkiblər. Eləcə də Ağdamın azad olunmuş torpaqlarında müxtəlif şirkətlər əkinçiliklə, yenə də qeyd edirəm, xüsusilə taxılçılıqla məşğul olur.**

Füzulidə təməlqoyma mərasimində Möhtərəm Prezident çoxlarını, həmin bölgənin sakinlərini narahat edən çox vacib bir məsələyə aydınlıq gətirdi. Bildirdi ki, hələ ki əhali azad olunmuş torpaqlara köçürülməyib, ona görə də həm torpaqlar boş qalmasın, həm də bu torpaqlar öz bərəkətini itirməsin deyə müvəqqəti olaraq müəyyən şirkətlərə icarəyə verilib ki, əksinlər-biçsinlər, ölkədəki ərzaq proqramına yardımçı olsunlar. Amma elə ki köçkün əhalinin öz doğma yurdlarına dönüşü başlayacaq, həmin torpaqlar onlara pay torpaq kimi veriləcək ki, onlar həm əkin-biçinlə məşğul olsunlar, həm də onlara iş yerləri açılsın.

## Britaniya səfiri: "Daim Azərbaycanın yanındayıq"



**Böyük Britaniyanın Bakıdakı səfiri Ceyms Şarp 18 oktyabr Azərbaycanın Müstəqilliyinin Bərpası Günü münasibətilə təbrik mesajı ünvanlayıb.**

Təbrikdə deyilir: "18 oktyabr Azərbaycanın Müstəqilliyinin Bərpası Günü münasibətilə Azərbaycandakı dostlarımızı təbrik edirəm. Bu il Azərbaycan Müstəqilliyinin Bərpasının 30-cu ildönümünü qeyd edir və öz tarixində yeni səhifə açır. Böyük Britaniya ilə Azərbaycan arasında bütün sahələrdə güclü ikitərəfli münasibətlər mövcuddur. Biz, Azərbaycanın davamlı inkişafı və tərəqqisi yolunda daim onun yanındayıq".

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 89 (5921) 19 oktyabr 2021-ci il | Qiyməti 30 qəpik

## Yaşadığımız şərəf və xoşbəxtlik

Bax: səh.2

# Prezident və xanımı Füzulidə ağac əkdilər



Bax:səh-2

## Komitə sədri: "Füzuli şəhəri 50 min nəfər üçün planlaşdırılır"



**"Cənab Prezident, Füzuli şəhərinin işğaldan əvvəl məskunlaşma ərazisi bu xəritədə tünd rənglə göstərilib. İndi artıq 397 hektar təşkil edir".**

Bunu Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev oktyabrın 17-də Füzuli şəhərinin Baş Planını Prezident İlham Əliyevə təqdim edərkən deyib.

**"Yeni Baş Plana görə artıq bu sarı rənglərlə göstərilmiş ərazi, o cümlədən hava limanı daxil olmaqla, 1936 hektar təşkil edəcək. Şəhər, ümumiyyətlə, 50 min nəfər üçün planlaşdırılır. Yəni, hesabat dövrünə - 2040-cı ilə 50 min nəfərlik şəhər olacaq", - o vurğulayıb.**

## Xəzərdə atəş səsləri: Sərhədimizi pozmaq istəyənlər...

**Dövlət Sərhəd Xidməti tərəfindən Xəzər dənizində dövlət sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi, rejim qaydalarına nəzarətin gücləndirilməsi və qaçaqmalçılığa qarşı mübarizə tədbirləri davam etdirilir.**

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən Adalet.az-a bildirilib ki, oktyabrın 16-da saat 23:00 radələrində DSX-nin Sahil Mühafizəsinin texniki müşahidə məntəqələri tərəfindən Xəzər dənizində cənub istiqamətindən Azərbaycana mənsub sulara daxil olaraq şimala doğru hərəkət edən üç naməlum hədəf aşkar olunaraq nəzarətə götürülüb. Azərbaycana mənsub sulara daxil olmuş naməlum üzmə vasitələrinin saxlanılması məqsədilə Xəzər dənizində dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmiləri dərhal həmin istiqamətə göndəriliblər.



DSX Sahil Mühafizəsinin sərhəd gözətçi gəmiləri tərəfindən naməlum üzmə vasitələrinin hərəkətinin qarşısı alınıb. Təqib edilən itisürətli üzmə vasitələri sərhəd gözətçi gəmisindən açılan xəbərdarlıq atəşindən sonra bortlarında olan yükləri suya ataraq geriyə doğru hərəkət edib və Xəzər dənizinin Azərbaycana mənsub sularını tərk ediblər.

Yüklər sudan çıxarılmış, baxış zamanı ümumi dəyəri təxminən 100 min manata yaxın olan 23 780 ədəd siqaret qutusundan ibarət olması müəyyən edilib.

**Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.**

## Keçmiş bələdiyyə sədri rüşvətə görə həbs olunub



**Bərdədə keçmiş bələdiyyə sədri rüşvətə görə həbs edilib. Bərdə Rayon Prokurorluğundan verilən məlumata görə, Bərdə rayonu, Şorəlli kənd bələdiyyəsində yol verilmiş qanunsuzluqlarla bağlı daxil olmuş müraciət əsasında rayon prokurorluğunda araşdırma aparılıb.**

Aparılmış araşdırmalarla müəyyən edilib ki, Şorəlli bələdiyyəsinin sabiq sədri Raqub Kərimov işlədiyi müddət ərzində öz qulluq səlahiyyətlərindən istifadə edərək vətəndaşdan rüşvət almaqla torpaq sahələrini geri tarixlərə sənədləşdirib rəsmi sənədlərə bilə-bilə yalan məlumat daxil etməklə vəzifə saxtakarlığı edib.

Faktla bağlı Bərdə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 311.2 (vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb, Raqub Kərimov qeyd olunan maddələrlə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda iş üzrə istintaq davam edir.

## *Bakının bu məktəb-liseyi koronavirusa görə bağlanır*



Bakı şəhəri 20 nömrəli məktəb-lisey distant təhsilə keçib. Adalet.az-ın məlumatına görə, məktəbdə müəllim və şagirdlər arasında koronavirus infeksiyasına yoluxma qeydə alınıb. Buna görə də sabahdan dərslərin distant formada keçirilməsinə qərar verilib.

## *Qarabağa icazəsiz daxil olan şəxslər saxlanılıb*



*Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən profilaktiki tədbirlər nəticəsində işğaldan azad edilmiş ərazilərə icazəsiz daxil olan şəxslər saxlanılıb.*

*DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, oktyabrın 17-də rayonun Binə kəndi ərazisində təyin edilən nəzarət postunda Göygöl rayon sakini Ariz Abdullayevin idarə etdiyi "Kamaz" markalı avtomobil prosedur qaydasına uyğun olaraq saxlanılıb.*

*Yoxlama zamanı A.Abdullayevin sərnişinləri - Göygöl rayon sakini Qürbət Qocayev və Orxan Paşayev ilə birgə müvafiq icazələri olmadan rayon ərazisinə daxil olduqları müəyyən edilib. Həmçinin avtomobilin yük yerinə baxış zamanı əlvan metallar da aşkar edilərək götürülüb. Faktla bağlı araşdırma aparılır.*

*Əbülfət MƏDƏTOĞLU*

## "BARIT QOXULU ÇİÇƏK"

Bax: səh.3

## Qaydaları pozan sürücü və piyadaların sayı açıqlanıb



**Azərbaycanda cari ilin 9 ayı ərzində qaydaları pozan sürücü və piyadaların sayı açıqlanıb.**

Baş Dövlət Yol Polisi İdarəsindən (BDYPİ) bildirilib ki, yol-nəqliyyat hadisələrinin 1 130-u, yəni 96.5%-i qaydaların sürücülər tərəfindən pozulması səbəbindən baş verib.

"Belə qayda pozuntuları əsasən nəqliyyat vasitələrinin yüksək sürətlə idarə edilməsi (475), qarşıdan gələn nəqliyyatın hərəkət zolağına çıxma və ötmə (360), yolayrıclarını keçmə (116), nəqliyyatın sərxoş vəziyyətdə idarə edilməsi (14), sükan arxasında yatma (9) halları ilə bağlı olub.

Sürücülərlə yanaşı, piyadalar tərəfindən də yol hərəkəti qaydalarının pozulması, xüsusilə yolun nəzərdə tutulmayan yerlərdən keçilməsi hallarının davam etməsi səbəbindən cari ilin 9 ayı ərzində 483 piyada vurma hadisəsi qeydə alınıb ki, bu da respublika üzrə ümumi hadisələrin 41.2%-ni təşkil edir", - BDYPİ-nin məlumatında qeyd edilib.

## Oxucuların nəzərinə

**Oktyabr ayından "Ədalət" qəzeti həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## PREZİDENT QARA QARAYEVƏ NƏ DEDİ?



***Möhtərəm prezident İlham Əliyevin xalq tərəfindn böyük coşğu ilə sevilməsinin səbəbi təkcə müdrik bir siyasətçi kimi, bir sərkərdə kimi 44 gün ərzində torpaqlarımızı Ermənistanın 30 illik işğalından azad etməsi, ölkəni dünyanın söz sahibinə, qüdrətli dövlətlər sırasına çıxarması deyil, həm də xalqla görüşlərində həddindən artıq səmimi olması, insanların ürəklərini boşaltması üçün şərait yaratması, incə yumoru və zarafatlarıdı.***

Bax: səh.2

## Balakəndə karantin qaydalarını pozan toy sahibi cərimələnib



**Balakən Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri nəzarət tədbirləri zamanı toy mərasimində karantin qaydalarının pozulduğu aşkarlanıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şəki regional qrupundan verilən məlumata görə, rayonun Qazma kəndində Sahib Məmmədova məxsus evin həyətyanı sahəsində təşkil edilən mərasimdə 150 nəfərdən artıq qonağın iştirak etdiyi müəyyən olunub. Aşkarlanan qayda pozuntuları ilə bağlı Sahib Məmmədov inzibati məsuliyyətə cəlb edilib və 400 manat cərimələnib.

### GÜNÜN LƏTİFƏSİ

Deyir bostanı belləyirdim. Birdən gördüm ki, yerdə 50 qəpiklik metal pul var. Götürüb cibimə qoydum.

Təzədən belləməyə davam edirəm. Görürəm yenə 50 qəpiklik pul. Beləcə düz on dəfə ard-arda.

**- Bəlkə xəzinədir?**

**- Ə, yox ee, sən demə, şalvarımın cibi deşik imiş.**

# Prezident və xanımı Füzulidə ağac əkdilər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzulidə yaradılacaq Mərkəzi Şəhər Parkında ağac əkiblər.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına və birinci xanıma yaradılacaq yeni park barədə məlumat verdi.

Bildirildi ki, burada şəhər sakinləri və qonaqlar üçün 21 hektarlıq böyük meşə parkı salınacaq. Ərazidə 5000-dən çox Eldar şamı, həmişəyaşıl sərv, zeytun, Şərq çinarı, ağcaqayın və digər növ ağaclar əkiləcək. Bununla yanaşı, sakinlərin asudə vaxtının maraqlı təşkili məqsədilə istirahət guşələri, müxtəlif tədbirlər üçün amfiteatr zonası, kempinq və istirahət yerləri, uşaq və gənclərin yaş qruplarına uyğun əyləncə zonaları, ekstrim velosiped sahəsi və digər guşələr yaradılacaq.

Parkda salınacaq su hövzəsi kafe və restoranlarda dincələn sakinlər üçün fərqli mənzərə yaradacaq. Ərazidə 8,2 kilometr uzunluğunda velosiped və 7,5 kilometr uzunluğunda piyada yollarının salınması planlaşdırılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda ağac əkdilər.

# Prezidentin qəbulları

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Qətər Dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri, Qətər-Azərbaycan Hökumətlərarası Komissiyanın həmsədri Məhəmməd bin Əbdülrəhman Al Taninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaq Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taninin salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırdı. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi. Görüşdə Azərbaycanla Qətər arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Qətər Dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd bin Əbdülrəhman Al Taninin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin və regional məsələlərin müzakirəsi üçün yaxşı imkanlar yaratdığı bildirildi. Eyni zamanda, Bakıda keçiriləcək birgə hökumətlərarası komissiyanın iclasının əhəmiyyətinə toxunularaq, iqtisadi və ticarət sahələrində əməkdaşlığın genişləndirilməsinin, qarşılıqlı ticarətin həcminin artırılmasının vacibliyi vurğulandı. Qarşılıqlı investisiya, eyni zamanda, üçüncü ölkələrə investisiya qoyuluşu üçün böyük potensialın olduğu qeyd edildi. Söhbət zamanı, həmçinin post-pandemiya dövründə turizm sahəsində əməkdaşlığın perspektivləri də müzakirə olundu.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri Vedat Bilgini qəbul edib.**

Vedat Bilgin Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi. Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə uğurla inkişaf etdiyi qeyd olunaraq, Türkiyə Respublikasının əmək və sosial müdafiə nazirinin səfərinin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi bildirildi. Görüşdə digər sahələrdə olduğu kimi, sosial çalışma sahəsində də yaxşı iş birliyinin mövcud olduğu vurğulanaraq, bu sahədə təcrübə mübadiləsinin əhəmiyyətinə toxunuldu. Eyni zamanda, əmək bazarının tənzimlənməsi, Türkiyədə çalışan Azərbaycan vətəndaşlarının, Azərbaycanda çalışan Türkiyə vətəndaşlarının sosial müdafiəsi məsələlərinin müzakirəsinin də önəmi qeyd olundu.

# İlham Əliyev Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma tədbirində iştirak ediblər.**

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına və birinci xanıma Mərkəz haqqında məlumat verdi.

Bildirildi ki, işğaldan azad edilmiş ərazilərdə yaradılan Rəqəmsal yarımstansiya elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Cənubi Qafqazda ilk dəfə tətbiq olunan bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini, vahidliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır.

Diqqətə çatdırıldı ki, Rəqəmsal Yarımstansiyadan qidalanan istehlakçılar hər hansı bir texniki fasilənin yaranması haqda məlumatları online qaydada əvvəlcədən ala bilirlər. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiya edilməsi prosesi Rəqəmsal Yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal Yarımstansiya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-birilə koordinasiyasını tam təmin edir. Bundan əlavə, əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, "yaşıl enerji" mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir, daimi işçi heyətə ehtiyac olmur. Prezident İlham Əliyev Mərkəzin təməlini qoydu.

Qeyd edək ki, dövlətimizin başçısının "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamından sonra "Azərişıq" ASC tərəfindən paylayıcı şəbəkələrin yaşıl enerji zonası tələbləri üzərində qurulmasına start verilib və "ağıllı şəbəkələr" konsepsiyasının təməl elementlərindən biri olan Rəqəmsal Yarımstansiya layihəsi işlənib hazırlanıb.

# QARABAĞ ZƏFƏR YOLU FÜZULİDƏN KEÇİR...

## *(Füzuli qələbəsinin birinci ildönümünə)*

**...27 sentyabr 2020-ci il tarixindən başlayaraq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin əmri və bilavasitə rəhbərliyi ilə erməni qəsbkarlarının hücumlarına cavab olaraq şanlı Azərbaycan ordusu işğal olunmuş ərazilərimizdə əks-hücum əməliyyatları həyata keçirdi. Uğurlu döyüş əməliyyatları nəticəsində düşmən tərəfindən qurulmuş istehkam xəttləri yarıldı, ermənilərin çoxsaylı canlı qüvvəsi və hərbi texnikası darmadağın edildi.**

Düşmən tapdağı altında qalmış tarixi Azərbaycan torpaqlarının - Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Xocavəndin, Hadrutun, Mincivanın, Suqovuşanın, Ağbəndin, ..., hamısı işğaldan azad edildi.

Şanlı Azərbaycan ordusunun böyük şücaət və xüsusi peşəkarlıqla həyata keçirdiyi döyüş əməliyyatları nəticəsində üçrəngli Azərbaycan bayrağı azad olunmuş doğma ərazilərimizdə - Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Hadrutda, Suqovuşanda, Kəlbəcərdə, Laçında, Ağdamda, xalqımızın tarixi birlik və qəhrəmanlıq simvolu olan Xudafərin körpüsü üzərində, ŞUŞADA qürurla dalğalanmaqdadır. Yaxın vaxtlarda xalqımız DAHA BÖYÜK QƏLƏBƏLƏR əzmindədir!

Hazırda yaşından, etnik və dini mənsubiyyətindən, sosial mənşəyindən asılı olmayaraq, bütün Azərbaycan xalqı cəbhədə ordumuzun qələbələrinə öz töhfəsini vermək üçün Ali Baş Komandan və Prezident İlham Əliyevin ətrafında vahid yumruq kimi birləşmişdir. Xalqımızın hər bir nümayəndəsi kimi bizlər də ordumuza maddi-mənəvi və informasiya dəstəyini daha mütəşəkkil həyata keçirmək məqsədilə var qüvvəmizlə çalışır və bütün imkanlarımızı səfərbər etmişik. Cəbhədə hərbi əməliyyatlarla yanaşı, qızğın informasiya müharibəsinin getdiyi hazırkı şəraitdə bizlər də kütləvi informasiya vasitələrində müxtəlif çıxışlar edirik. Qarabağ həqiqətləri, erməni irqçi faşist ideologiyasının ifşa edilməsi, ədalətli dövlət siyasətinin təbliği, xalqımızın vətənpərvərlik ruhunun və haqq işinin dünya xalqlarına çatdırılması istiqamətlərində əlaqədə olduğumuz müxtəlif ölkə alimləri və ziyalılarıyla məqsədyönlü məlumatlandırma işləri aparırıq. Dağlıq Qarabağ müharibəsi ilə bağlı obyektiv məlumatların daha geniş dünya ictimaiyyətinin diqqətinə çatdırılması məqsədilə xaricdə fəaliyyət göstərən beynəlxalq qurumlara, universitet və elmi mərkəzlərə, görkəmli alim və mütəxəssislərə, ziyalılara, gənclərə, tələbələrə tərəfimizdən xüsusi məktublar və müraciətlər göndərilmişdir.

Bu parlaq qələbə heç şübhəsiz ki, Cənab PREZİDENTİN yürütdüyü qətiyyətli siyasətin və nail olduğu yüksək ordu quruculuğunun nəticəsi idi! Azərbaycan Silahlı Qüvvələri həqiqətən də bölgənin ən qüdrətli ordusudur və hərbçilərimiz qısa zamanda ölkəmizin ərazi bütövlüyünü bərpa etməklə, işğalçılara tutarlı cavab verdilər.

***Cənab PREZİDENTİ və xalqımızı əmin etmişdik ki, Füzuli ziyalıları və rayonun bütün əhalisi hər zaman olduğu kimi o həyəcanlı, məsuliyyətli və şərəfli anlarda da dövlətimizin, ordumuzun apardığı haqlı mübarizəni ürəkdən dəstəkləyir və müdafiə edirdik.***

Müraciətdə sevinclə və məsuliyyətlə bildirmişdik ki, Biz həmişə sizinləyik, cənab Prezident! Biz sizinlə qürur duyuruq cənab Ali baş komandan!Biz sizin arxa cəbhədəki əmrinizə hazır olan əsgərlərinizik!

...Azərbaycan Prezidenti dünyanın aparıcı televiziya kanallarına birbaşa durmadan müntəzəm müsahibələr verirdi. Onu bütün ədalət sevər dünya görür. Bizi sevməyənlər də, düşmənlərimiz olan işğalçı ermənilər də onlara gözdağı olan bu çıxışları dinləmək zorundadırlar.

***Prezident İlham Əliyev keçən il oktyabrın 17-də işğal altında olan neçə kəndimizin, sonrakı azadetmələr üçün açar şəhərlərdən hesab edilən Füzulinin düşməndən təmizləndiyini xəbər verir. Prezident milyonların ürəyində əkssəda oyadan elə sözlər deyir ki, o kəlmələrin hər biri 30 ilə yaxın bir müddətdə ürəklərdə qalan tikanı çıxarır, yaralarımıza məlhəm olur, qürurlanırıq, fəxarət hissi keçiririk. Hər birimiz elə zənn edirik ki, danışan elə bizik.***

Bəli, bizim səsimizlə rəhbərimizin səsi bunca həmahəng, ürəyimizlə onun ürəyi bunca birgə olmamışdı. Bizim PREZİDENTIMİZ olmağın həqiqəti , fəlsəfəsi elə elə bu imiş, bundaymış!

***Təəssüf ki bu günlərin içərisində oktyabrın 11-i və 17-si gecələri kimi Gəncəyə, dinc əhaliyə açılan raket atəşlərindən sonra həyatını itirən günahsız insanların, məsum körpələrin, neçə məhəllənin, evlərin dağıntısı sorağını aldığımız, acılar yaşadığımız kədərli saatlar da var. Lakin neyləməli, bizə düşmənin ən mənfuru, ən alçağı, qaniçəni nəsib olub. XIX yüzilin sonlarından etibarən bütün dünyada terrora rəvac verən qorxunc qüvvə kimi tanınan erməniçilik indi bəşər əleyhinə həmin cinayətkarlığını dövlət səviyyəsində həyata keçirməkdədir.***

***Buna baxmayaraq çoxdan xiffətini çəkdiyimiz qələbə xəbərlərinin hər gün daha yenisini eşidərək qürrələndik. BİZ QALİB GƏLDİK! BU QALİBİYYƏTİN hamısının altındakı ilk imza BİZİM PREZİDENTİMİZİNDİR!***

Odur illərcə ölkəmizi zənginləşdirən, gücləndirən, ordumuzu mükəmməlləşdirən, qüvvətləndirən və müasirləşdirən! Odur dünyada Azərbaycanın gerçək nüfuzunu durmadan artıran! Odur xalqının tarixinə əbədi qurucu kimi daxil olan! Odur millətin yaddaşına XILASKAR kimi daimi həkk olunan!

***...Biz bu tarixi günlərimizdə Türkiyə-Azərbaycan dostluğu ilə fəxr etdik. Biz qürurla***



***Mustafa Kamal Paşa Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın ələmi bizim ələmimizdir" və unudulmaz Heydər Əliyevin "Azərbaycan və Türkiyə - bir millət, iki dövlət" kəlamlarını xatırlayırıq. Bizləri bir millət olaraq birləşdirən o qədər cəhətlər var ki və türk dünyasının bu iki aparıcı dövlətinin mənafelərinin kəsişmə nöqtələri o qədər çoxdur ki, bu münasibətlər bütün dövrlərdə həmişə qardaşlıq, müttəfiqlik, qarşılıqlı yardım və dəstək üzərində qurulub, belə də qalacaq. Lakin Türkiyəyə Rəcəb Tayyib Ərdoğanın, Azərbaycana İlham Əliyevin başçılıq etdiyi illər və bu iki güclü liderin qarşılıqlı səmimi münasibətləri sayəsində daha da istiləşən və yaxınlaşan dostluq və əməkdaşlıq tariximizin ən fəxr etməli parçasıdır.***

Belə bir şərəfli əməkdaşlıq şəraitində Prezidentimiz tarixi ədalətsizliyi aradan qaldırdı. Dünyanın tanıdığı sərhədlərimizdə öz bayrağımız dalğalandı.Dünya bizim ədalətimizlə hesablaşdı. Əhalisi də, ərazisi də, büdcəsi də, hərbi gücü də, inamı da, güvəni də bizdən on dəfələrlə az olan bir topluma daha onca havadarlıq edə bilməyəcəklər. Müharibənin bütün sahələrində artıq qalibiyyət bizim olmuşdur.

Biz itgilərimizi bərpa edəcəyik. Postkonflikt ərazilərimizin bərpası üzrə çox ciddi işlər görülür. Bərpa üzrə böyük investisiya layihələri cəlb olunacaq, Dövlət Proqramları qəbul olunacaqdır. Buna bizim bütün imkanlarımız vardır. Zəbt olunmuş ərazilərimizin gələcəyi rahat, geniş həyətlər, planlı salınmış məhəllələr, səliqə-sahmanlı, gözəl evlər, cazibədar kəndlər, böyük şəhərlər olacaqdır. Yeni qurulacaq Qarabağda Qarabağ Universiteti, AMEA-nın Qarabağ bölməsi, Şuşa konservatoriyası, onlarla muzeylər, mədəniyyət mərkəzləri, konsert salonları, zavodlar, fariklər, texnologiya parkları, xüsusi iqtisadi zonalar yaradılmaqdadır.

***Qədim Azıx mağarası, Quruçay mədəniyyəti, tarix və memarlıq abidələri ilə məşhur olan Füzuli rayonu beynəlxalq turizmin mərkəzinə çevriləcəkdir. Araz çayı boyunca İranla həmsərhəd olan Füzuli rayonu ərazisindən axan Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları ilə birgə kənd təsərrüfatı sahəsində ciddi uğurlara imza atacaqdır. Ərazisi 1. 39 min kv.km olan Füzuli rayonunda 2 şəhər (Füzuli, Horadiz), 11 yeni salınmış qəsəbə, 80-den çox kənd vardır. Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edib. Bu da məhsuldarlıq baxımından kənd təsərrüfatına yararlı torpaq sahələrinin çox olması ilə izah edilir. İşğala qədər rayonda taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf edib. Rayonda 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı, 11 üzüm emalı müəssisəsi və s. vardı. Kənd təsərrüfatına yararlı torpaqlar 85 min hektar idi. 50,9 min ha otlaq sahələri var idi. Rayonda Köndələn çayı üzərində Köndələn su anbarı tikilmiş, suvarma kanalları çəkilmişdir. Suvarılan torpaqlar 24 min hektardan çox idi. İşğaldan əvvəl təsərrüfatlarda kənd təsərrüfatı ilə yanaşı, rayonda tikinti tresti, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərirdi.***

Mədəniyyətin inkişafına görə, ölkənin digər bölgələrindən geri qalmayan Füzuli rayonunda işğala qədər 90 kitabxana, 20 mədəniyyət evi, 79 klub, 20 kinoqurğu, 2 muzey, xalq və dövlət dram teatrları, istirahət parkları fəaliyyət göstərib. Təhsil və səhiyyədə də yaxşı göstəricilərə malik rayonda 685 çarpayılıq 13 xəstəxana, 17 həkim məntəqəsi, 30 tibb məntəqəsi, vərəm, dəri və zöhrəvi xəstəlikləri dispanseri, texnikum, 86 ümumtəhsil məktəbi, 2 texniki peşə məktəbi, 65 məktəbəqədər müəssisə, stadion, və s. obyektləri olub. Eləcə də güclü kadr potensialı, yüksək intellektə malik ziyalıları, görkəmli alimləri ilə respublikamızda ad-san qazanmışdır. Əməyə bağlılıq, halal zəhmət də füzulilərin həyat tərzi olmuşdur. Bu torpağın 500-ə yaxın elm adamı yetişmişdir.

***23 avqust 1993-cü il tarixdə ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Füzuli rayonu 17 oktyabr 2020-ci ildə cənab prezidentin rəhbərliyi ilə yenidən azadlığına qovuşdu. Baxmayaraq ki, 05 yanvar 1994-cü ildə Azərbaycan Respublikası silahlı qüvvələrinin hücumu nəticəsində rayonun 22 yaşayış məntəqəsi işğaldan azad olunmuşdu və rayonun işğaldan azad olunmuş ərazilərində rayon əhalisinin 50%-ə qədəri yaşayırdı.***

Ermənistanın silahlı qüvvələri ilə mübarizədə rayon sakinlərindən 400 nəfərədək müharibə əlili, 657 nəfər şəhid olmuşdur, 181 nəfər əsir və itkindir. 6 nəfərə Azərbaycan Respublikasının Milli qəhrəmanı adı verilmişdir. Hazırda 1 şəhər, 61 kənd rayonun yenicə işğaldan azad olunmuş ərazilərində yerləşir. İşğaldan əvvəllər azad olunmuş ərazilərdə isə 1 şəhər,17 qəsəbə və 21 kənd vardır. Azərbaycan Respublikası Prezidentinin komandanlığı ilə 27.09.2020-ci il tarixdən başlayaraq aparılan döyüş əməliyyatları nəticəsində Füzuli şəhəri daxil olmaqla bütün yaşayış məntəqələri işğaldan azad edilmişdir. Rayon əhalisinin 50% -ə qədəri Bakı, Sumqayıt, Gəncə və digər şəhərlərdə, Beyləqan, İmişli, Saatlı, Sabirabad və digər rayonlarda məcburi köçkün kimi müvəqqəti məskunlaşmışdır.

Hazırda Füzuli rayon Təhsil Şöbəsinin tabeliyində 79 ümumtəhsil məktəbi, 1 İnternat tipli Gimnaziya, 2 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Həmin məktəblərin 15-i Bakı şəhəri, 5-i Sumqayıt şəhəri, 1-i Şirvan şəhəri, 2-si Sabirabad rayonu, 5-i İmişli rayonu, 7-si Beyləqan rayonu, 44-ü isə rayon ərazisində fəaliyyət göstərir.

***2019-2020-ci tədris ilində ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin sayı 13929 nəfər, pedoqoji işçilərin sayı 2159 nəfər olub. Rayon ərazisində Füzuli rayon Mədəniyyət evi, Horadiz şəhər Mədəniyyət evi, 14 kənd mədəniyyət evi, 8 klub müəssisəsi fəaliyyət göstərir. Həmin mədəniyyət müəsisələri dövrə, zamana uyğun olaraq ədəbi-bədii gecələr, kompozisiyalar və konsert proqramları ilə həm əhalinin, həm də, təmas xəttində yerləşən hərbi hissələrdə maraqlı çıxışlar etmişdir.***

Füzuli Mərkəzi Rayon Xəstəxanasının tabeliyində 15 xəstəxana, 28 həkim məntəqəsi və 48 tibb məntəqəsi olmaqla 9 xəstəxana 220 çarpayı olmaqla, 19 həkim məntəqəsi və 15 tibb məntəqəsi fəaliyyətdədir. Füzuli Mərkəzi Rayon Xəstəxanası hal-hazırda 75 həkim, 297 orta tibb işçisi, 617 digər işçilərlə əhatə olunmuşdur.

Füzuli rayon əhalisi Ölkə Başçısı cənab İlham Əliyevin Füzuliyə 18.04.2008-ci il, 04.10.2008-ci il, 11.11.2010-cu il, 15.12.2012-ci il, 28.08.2014-c? il, 12.11.2016-c? il səfərlərini heç vaxt yaddan çıxarmırlar. Hörmətli Prezident və Ali Baş Komandanın 2016-cı il səfərindəki "Azərxalça ASC Füzuli filialının fəaliyyəti ilə tanışlığı, Horadiz şəhərində inşa edilmiş Avtovağzalın açılışını, Horadiz şəhərində inşa edilmiş Füzuli Dövlət Rəsm Qalareyasının açılışını, məcburi köçkünlər üçün tikilmiş yeni qəsəbə ilə tanışlığı, məcburi köçkünlər üçün tikilmiş yeni qəsəbədəki orta məktəbdə yaradılan şəraitlə tanışlığı, məcburi köçkünlər üçün tikilmiş yeni orta məktəbin idman zalında məktəblilərlə görüşünü, Qayıdış qəsəbələrini birləşdirən avtomobil yolunun açılışını, məcburi köçkünlər üçün tikilmiş yeni qəsəbədə rayon ictimaiyyətinin nümayəndələri ilə xöş və unudulmaz görüşünü unutmurlar. Bu görüşlərin yeni dirçələn ərazilərdə təkrarən olacağı günü gözləyirlər. Onlar inanırlar ki, bizim yaralı torpaqlarımız sağalacaq, çiçək açacaqdır. Biz Prezidentimizin dediyi kimi "Tikəcəyik, quracayıq, dirçəldəcəyik!".

**Füzuli uğrunda həlak olanların ruhu, xatirəsi bizimlədir. ONLAR HEÇ ZAMAN UNUDULMAYACAQLAR!**

**Var olsun Füzuli igidləri, Füzulilər!**

**Var olsun FÜZULİ RAYONU!**

**Akif Musayev,**
**AMEA müxbir üzvü, professor,**
**Əlövsət Qaraca Əliyev,**
**Dosent**

# Yaşadığımız şərəf və xoşbəxtlik

## Müstəqilliyimizin 30 yaşına

**Tarixə nəzər salanda göz önünə xaotik bir zaman gəlir. Həmin zaman Azərbaycan xalqının həyatında yeni başlanğıc üçün dalğalanan dəryanı xatırladır. Belə ki, artıq Dağlıq Qarabağda faciələr yaşayan, Ermənistandakı soydaşlarımızın köçkün yükünü çiyninə götürən, 20 Yanvar faciəsini ürəyində dağ edən Azərbaycan bütün bunlardan çıxmaq üçün özündə təpər tapmağa məcbur idi. Məhz bu məcburiyyət həm də xalqın hakimiyyətə təzyiqi o zamankı iqtidarı seçim qarşısında qoymuşdu. Doğrudu, artıq Sovetlər Birliyi də öz-özünə parçalanıb dağılırdı. Artıq Pribaltikada, elə Rusiyanın özündə də suverenlik ilə bağlı aktlar qəbul olunmuşdu.**

1991-ci ilin oktyabr ayının 18-də o zamankı Azərbaycan parlamenti xalqımızın tarixində önəmli bir addım atdı. Bu addım bizim müstəqilliyimiz ilə bağlı idi. Cümhuriyyət hökumətinin xalqımıza 23 ay yaşatdığı azadlığı, müstəqilliyi yenidən bəyan etmək, tarixi həqiqəti öz yerinə qaytarmaq missiyası məhz həmin parlamentin üzərinə düşmüşdü.

Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin müraciətində deyildiyi kimi "Azərbaycanın müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşmiş, ağır sınaqlardan keçmişdir. Daxili çəkişmələr, dövlət idarəçiliyindəki özbaşınalıq və səriştəsizlik, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirmiş, onun gələcək taleyini sual altına qoymuşdu".

Həqiqətən də 30 il bundan öncə Azərbaycan xalqı və Azərbaycan dövləti ən çətin sualla üz-üzə idi. Məhz ulu öndərimizin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışı xalqımızı və dövlətimizi də çətin durumdan xilas etdi. Ümummilli liderimizin xilaskarlıq missiyası həm də bəyan edilmiş müstəqilliyimizi qoruyub saxlamaqda əsas şərt oldu.

**İndi 44 günlük Böyük Vətən Müharibəsinin sevincini yaşayan xalqımız həm də özünün 30 illik müstəqilliyinin xoşbəxt anlarını tarixləşdirir. Belə bir məqamda Azərbaycan vətəndaşı olmaq, Dəmir yumruqlu liderin əsgəri kimi sırada dayanmaq həm şərəfdir, həm də xoşbəxtlikdir. Bu gün dövlətimiz və xalqımız həmin şərəfi və xoşbəxtliyi öz halal haqqı kimi yaşayır.**

**Əbülfət MƏDƏTOĞLU**

*Aqil ABBAS*

# PREZİDENT QARA QARAYEVƏ NƏ DEDİ?

***Möhtərəm prezident İlham Əliyevin xalq tərəfindn böyük coşğu ilə sevilməsinin səbəbi təkcə müdrik bir siyasətçi kimi, bir sərkərdə kimi 44 gün ərzində torpaqlarımızı Ermənistanın 30 illik işğalından azad etməsi, ölkəni dünyanın söz sahibinə, qüdrətli dövlətlər sırasına çıxarması deyil, həm də xalqla görüşlərində həddindən artıq səmimi olması, insanların ürəklərini boşaltması üçün şərait yaratması, incə yumoru və zarafatlarıdı.***

***Ayın 17-də Füzulinin işğaldan azad olunmasının 1-ci ildönümü ilə əlaqədar şəhərin təməl daşının qoyulması münasibəti-***



***lə keçirilən tədbirdə çox maraqlı söhbətlər oldu. Tədbir iştirakçılarının hamısı öz ürək sözlərini prezidentlə və eləcə də 1-ci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva ilə bölüşə bildilər.***

***Yeri gəldikcə həmin görüşdə baş verən maraqlı hadisələr barədə yazılar yazacam.***

***Bu gün həmin o maraqlı hadisələrdən birini oxuculara çatdırmaq istəyirəm.***

***Görüşdə "Qarabağ" komandasının və eləcə də millimizin futbolçusu Qara Qarayev də iştirak edirdi. Qara 1 yaşında bu şəhəri, daha dəqiq desək, doğulduğu Horadiz kəndini ailəsi ilə tərk edib və 28 ildən sonra azad ölkənin azad olmuş torpaqlarının azad bir sakini kimi doğma yerlərdəydi. Onun sevincini təsəvvür etmək çox çətindi.***

***Həmin gün "Qarabağ"ın "Sabah"la oyunu vardı. oyun da axşam saat 7-yə 15 dəqiqə qalmış başlamalı idi. Çox həyəcanlı idi ki, qayıdıb oyuna çata biləcək, ya yox. Ürəyinin yarısı doğma Füzulidəydi, yarısı da doğma komandasında. Bu çətin oyunda komandasını tək qoymaq istəmirdi.***

***Möhtərəm prezident Qara Qarayevlə görüşərkən birinci sözü bu oldu ki, "Qarabağ" hamımızın komandasıdı , komandanı hamımız sevirik və həmişə uğurlar arzulayırıq. Mən də dedim ki, Möhtərəm Prezident, bu gün "Qarabağ"ın oyunu var, axşam saat 7-də, Qara çalışır ki, görüşdən sonra oyuna çatsın, komandasını tək qoymasın.***

***Prezident güldü, Qaranı da sıxdı özünə və dedi:***

***- Qurbana zəng edin, deyin ki, prezident deyir ki, Qara gəlib çatmayana kimi oyunu başlamasınlar.***

***Möhtərəm Prezidentin bu incə yumor və zarafatı Qaranın üzündə çiçəklədi.***

***Qara özünü oyuna çatdırdı, amma yol yorğunluğunu nəzərə alıb Xoca, yəni Qurban Qurbanov həmin gün onu oyuna buraxmadı.***

***"Qarabağ" 2:1 hesabı ilə "Sabah"a qalib gəldi. Ayın 21-də Avropa çempionatları oyunlarında "Qarabağ" "Kayrat"ı qəbul edəcək. İnşallah, Qara həmin oyunda Prezidentin ona və "Qarabağ"a olan sevgisini gözəl oyunu ilə doğruldacaq.***

# Təkliflər ən qısa müddətdə Nazirlər Kabinetinə təqdim olunacaq

**Bildiyimiz kimi Azərbaycan Prezidenti "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncamda Beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə həssas əhali qruplarına mənfi fəsadlarını yumşaltmaq və əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə Nazirlər Kabinetinə tapşırılır ki, əməkhaqlarının, əmək pensiyalarının və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılmasının təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.**

Sərəncamda da bildirildiyi kimi son illər bu istiqamətdə ciddi irəliləyişlərə nail olunmuş, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılmışdır. Bu məqsədlə 2019-cu ildə iki sosial islahat zərfi qəbul olunaraq icra edilmiş, müavinət və təqaüdlərin məbləğinin orta hesabla 92%, əmək pensiyasının minimum məbləğinin 72%, minimum əməkhaqqının 92%, dövlət büdcəsindən maliyyələşdirilən qurumlarda işləyənlərin əməkhaqlarının orta hesabla 50% artırılması təmin edilmişdir. Görülmüş tədbirlər nəticəsində 2018-ci ilin əvvəli ilə müqayisədə orta aylıq nominal əməkhaqqının məbləğində 39%, əmək pensiyalarının orta məbləğində 60%, sosial müavinətlərin orta məbləğində 2 dəfə, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin orta məbləğində isə 2,2 dəfə artım əldə olunmuşdur.

Maliyyə Nazirliyindən verilən məlumata görə, sərəncamdan irəli gələn tapşırıqların 2022-ci ilin dövlət büdcəsi layihəsində əks etdirilməsi üçün müvafiq təkliflərin hazırlanması üzrə işlərə artıq başlanılıb. Qeyd olunub ki, 2022-ci ilin dövlət büdcəsinin gəlir və xərclərinə baxılır. Həmçinin əməkhaqlarının, əmək pensiyalarının və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılmasının maliyyə təminatının yaradılması ilə bağlı məsələlər nəzərdən keçirilir: "Dövlət büdcəsi layihəsinə müvafiq düzəlişlərin edilməsi ilə bağlı təkliflər ən qısa müddətdə Nazirlər Kabinetinə təqdim olunacaq".

Əməl və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən isə bildirilib ki, ümumilikdə son üç ildə ölkəmizdə fərman, sərəncam, qanun və s. ibarət olmaqla qəbul edilən 900-dən çox normativ-hüquqi akt əhalinin sosial rifahın yaxşılaşdırılmasına xidmət edən sənədlər olub və sosial təminat növləri üzrə ödəniş alanların sayı 160 min nəfər artaraq 2,4 milyonu ötüb. "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" yeni Sərəncam ölkəmizdə sosial inkişafın davamlı xarakter almasını, sosial ödənişlərdə ciddi artımları təmin edən islahatların növbəti mərhələsinə keçidi təmin edir və ümumilikdə 1 milyon 800 min nəfərədək vətəndaşımızın rifahının daha da yaxşılaşmasına xidmət edəcək.

Pensiya və sosial müavinət artımı tədbiri isə 450 min şəxsə müvafiq sosial ödənişin artırılmasına imkan verəcək. Təqaüd artımı istiqaməti isə tələbələrin rifahına dəstək məqsədi daşıyır. Təqribən, 130 minədək tələbənin təqaüdündə artım olacaq.

**Nazirlər Kabinetindən isə verilən məlumata görə, Nazirlər Kabineti İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən gələn təklifləri oktyabrın 21-dək hazırlayıb təqdim edəcək. Hökumət həmin təkliflərin hazırlanmasına artıq başlayıb.**

**Nicat Novruzoğlu**



*Emin Piri*

# FÜZULİ GÜNLƏRİ...

**Müharibə dedikdə yadıma ilk olaraq Füzuli-Cəbrayıl cəbhəsi düşür. Füzuli dedikdəsə Kürdlər, Dördçinar və.s istiqamətlər...**

**Bu kəndlərin qarşısında düşmən önündə müəyyən yüksəklik-təpələrin bəzisində bizim batalyon yerləşib. Təbii ki, qarşılıq olaraq düşmənin artileriya hücumları başlayır. Həm orda qalmağa imkan verməmək, həm də geri oturtmaqçün toplardan və minaatanlardan mərmi yağmuru. Dərinliyi dizdən olan, ot basmış səngərə yerləşirəm heyətimizlə. Qazılma istiqaməti və.s aydın hiss olunur ki, bu səngər 1-ci Qarabağ savaşından qalmadır. Allah bilir, orada birinci savaşda kimlərimiz şəhid olub. İndi onların övladları idi o səngərdə olanlar. Bu qədər mərmi yağmuru və itkimiz hələ yoxdu. Hələki bəxtimiz gətirir. Bəlkə o səngərdəkilər ruhu, birinci Qarabağ savaşında orda şəhid olanların ruhu idi bizi qoruyan?!**

**Bir neçə dəqiqə sonra sonra sağ istiqamətimizdə yerləşən bölükdən artileriya atışlarından sonra bir zabitimiz və iki əsgərimiz yaralanır.**

**Səhv etmirəmsə, baş leytenant Əmrahov sağ əlinin barmaqlarını itirir. Bir əsgər boğazından, digərisə bədəndən yaralanır. Digər bölmələrin də köməkliyi ilə yaralılar oradan aparılır.**

**Bunun ardınca bizim ordunun şiddətli əks artileriya hücumu, atışları başlayır. Toplardan və.s  Bir neçə partlayışsa raket atıldığının bariz nümunəsi idi. Həm təhlükə, həm də bu raket partlayışlarına olan marağımı öldürə bilmirəm. Bu nədir, bu nə partlayışlardır belə...Torpağın bağrı yarılır sanki.**

**Bu atışlardan sonra düşmənin artileriya atışları səngiyir, sonrasa tam dayanır. Gecəyə yaxın bizə məlumat verilir:Gecə ”qonaqlarımız” olacaq. Heç bir halda qarşı tərəfə, hərəkətliliyə atəş açmayın. Bildiyiniz, yəni bizim ordu, XTQ və digər bölmələr gecəylə hücuma keçəcək...**

**...Qısa müddət ərzində o kəndlər, qarşısı və digər istiqamətlər düşməndən tam təmizlənir.**

**Həmin kəndlər haqqında və.s öncələr daha geniş yazmışam və mediada dərc olunub. Həmin kəndlərdə sonrakı günlər batalyonumuz 20-yə yaxın yaralı və 4 şəhid verir...**

**Bir yaşınız mübarək, əziz füzulilər!**

***P.S.** Şəkil həmin kəndlər və qarşısı təmizləndikdən sonra çəkilib. İndi orda nəfəskəsici günlərdən sonra 2-3gün dincəlmək olardı...*

# "BARIT QOXULU ÇİÇƏK"

**Şuşa səfərindən dönəndən bir neçə gün sonra ünvanıma bir məktub gəldi. Məktubun üzərindəki ünvana baxıb, müəyyən qədər özümü kökləyə bildim. Çünki göndərən şəxs öz ruhu və poetik dünyası ilə mənə doğma idi. Üstəlik həyatda bir dəfə də olsun üz-üzə gəlmədiyim, qarşılaşmadığım bu şəxslə bağlı mənə qələm dostlarım maraqlı fikirlər söyləmişdilər. Xüsusi ilə böyük söz dünyasından vaxtsız köç edən Böyük ürək və böyük qələm sahibi Vəliyulla Novruz hər görüşümüzdə vurğulayırdı ki, bizim bölgənin ədəbi mühitində Əlirza Həsrətin özəl yeri var. Bax elə bu təqdimat və bir də könül dostum, şair Hacı Əlinin söylədikləri də məni necə deyərlər, könüldən-könülə bağlamışdı Əlirza Həsrət dünyasına.**

Elə buradaca xatırladım ki, mən Əlirza Həsrəti onun çalışdığı telekanalın efirindən də izləyəndə bir telejurnalist kimi mövzu təqdimatına həmişə maraq göstərmişəm. Bax, bütün bu kiçik girişdən sonra xatırlatmaq istəyirəm ki, ünvanıma gələn məktubun içərisində yerləşdirilən "Barıt qoxulu çiçək" kitabı mənə Şuşa səfərindən sonrakı ən böyük hədiyyə oldu. Çünki Şuşanı ziyarət edib gəlmək, xatirələrdən reallığa dönüş məni havalandırdığı bir vaxtda 44 günlük bir Zəfərimizin adına bağlanmış bu barıt qoxulu çiçək dəstəsi həqiqətən maraqlı idi.

Nəfis şəkildə gənc həmkarımız Tural Adışirinin ön sözü ilə çap olunmuş kitabın redaktoru Bilal Alarlı Hüseynov da bu kitabı həqiqətən ürəklə oxucuya təqdim ediblər. Mən hər iki müəllifin fikirləri ilə tanış olandan sonra kitab barəsində duyğularımı ifadə etməyə çətinlik çəkirəm. Çünki onlar bu kitabın təkcə mövzusunu, qayəsini deyil, həm də lirik-fəlsəfi poema olan əsərin az qala bənd-bənd yozumuna da açıqlayıblar. Ona görə həmin müəlliflərin fikirlərini özünə hopduranda artıq əsərin dadı, tamı da, şirəsi də, ovqatı da sənə hopur, özününküləşir. Bax, bu yerdə də özünün olan barəsində fikir söyləmək çətinliyi yaranır. Təbii ki, mən poemanı oxuyub başa çıxandan



sonra özümün Qarabağ savaşı meydanlarında yaşadığım duyğuları da içimdə təkrarladım. Həmin müharibənin birinci mərhələsində baş verənlərlə ikinci savaşımızın səhnələri arasında fərqləri, oxşarlıqları paralelləşdirdim.

Və mənə bir daha aydın oldu ki, Əlirza Həsrət müharibənin az qala səngərində dayanıb şəhid və qazi oğullarımızla birlikdə o həyatı yaşayıbdır. Ona görə də onun çiçəklərə üz tutub dediyi misralar təkcə könül oxşamır, həm də ürəyi dodaq kimi əsdirir. Məsələn:

***Ürək taxtdır, eşq tacın,***
***Sil göz yaşını Laçın.***
***Bitdi həsrətin, acın -***
***Deyə-deyə gəlirəm.***

***Bayraq süfrəmdə ruzu,***
***Bu da ayı, ulduzu.***
***Şərəfli Ordumuzu -***
***Öyə-öyə gəlirəm.***

***Durub üzü sabaha,***
***Sarılmışıq silaha.***
***Ürəyim sığmır daha -***
***Yerə-Göyə, gəlirəm.***

Mən bu poemadakı hər bir bəndin fikir yükü ilə yanaşı, onun dilə yatımlığını da özüm üçün bir yenilik yox, sadəcə müəllifin istedadının göstəricisi kimi qəbul etdim.

Və içimdə əmin oldum ki, şeirlərin bu diləyatımlığı onun əzbərlənməsi, yaddaşa köçməsi üçün də rahat yol açır. Məsələn:

***Bu Vətənin canı Şuşa,***
***Gur şəfəqli danı Şuşa.***
***Könüllər sultanı Şuşa,***
***Nə gözəl bayraq yeridir.***

Və yaxud:

***Bu pətəyin, bu şanın,***
***Gəlsin nəğmə qoşanın.***
***Xan sarayı Şuşanın -***
***Tacına bax, ilahi.***

**Ümumiyyətlə, öncədən də vurğuladığım kimi, bu lirik fəlsəfi poema sözə dəyər verən, savaşımızı canından, qanından keçən oxucu üçün yaxşı bir hədiyyədir. Düşünürəm ki, kitabın nəşrində xidməti olan professor, doktor, şair Elçin İsgəndərlinin də haqqını xatırlatmaq bu məqamda yerinə düşər. Və bütövlükdə kitabı təkcə barıt qoxulu çiçək yox, həm də mən Barıtı Çiçəyə Çevirən söz kimi də adlandıra bilərəm. Zənnimcə, mənim bu oxucu fikrim Əlirza Həsrət yaradıcılığına olan münasibətimin göstəricilərindən biri sayıla bilər.**

**Əbülfət MƏDƏTOĞLU**

# Ötür-ötür oyunu...

## Yaxud şəhidlərin ruhu niyə incidilir?

**Azərbaycan 44 günlük Böyük Qarabağ Savaşında çox möhtəşəm və tarixdə analoqu olmayan unikal bir qələbə qazandı. 44 gündə üç min şəhidimiz öz qanları, həyatları ilə işğal altında olan bütün torpaqlarımızı azad elədi...**

...Və Böyük Qarabağ Savaşında yüzlərlə də yaralı qazilərimiz oldu. Əgər onlar döyüşməsəydilər, əgər onlar vuruşmasaydılar, biz Füzulini, Cəbrayılı, Hadrutu, Zəngilanı, Qubadlını, Şuşanı, Ağdamı,  Laçını, Kəlbəcəri işğaldan azad edə bilməzdik. Və onlar vuruşdular, qanları, canları bahasına bizi bu Vətən torpaqlarına qovuşdurdular. İşğaldan azad olunan hər bir qarış yerdə onların qanı, təri var. Və o qan, tər otların, çiçəklərin, çəmənliklərin üstünə hopub. Və günlərin bir günündə o çiçəklər torpaqdan boylananda yenidən biz üç min şəhidin səsini eşidəcəyik, nəfəsini, hənirini duyacağıq. Hər gün, hər saat biz onların səsini, nəfəsini hiss edirik...

...Onlar şəhadətə qovuşdular, öz adlarını və soyadlarını Azərbaycan tarixinin salnaməsinə yazdılar, biz də o şəhidlərə baxıb fəxr elədik, qürur duyduq. Artıq İkinci Qarabağ Savaşından




bir ilə yaxın zaman ötür. O şəhidlərin bir çoxunun adı tariximizə yazılmaqla yanaşı, həm də əbədiləşdirilib. Amma əksər şəhidlərin adı onların doğmalarının dediklərinə güvənsək, əbədiləşdirilməyib və onlar da düz bir ilə yaxındır ki, icra hakimiyyətindən tutmuş Nazirlər Kabinetinə qədər müraciət ediblər. Çox təəssüf ki, həmin şəhid ailələrinin hamısına heç də yetərincə kömək göstərilməyib və heç olmasa təsəlliverici addım atılmayıb...

...Onlar icra hakimiyyətinə gedirlər, orda deyirlər ki, gərək şəhidin 4 medalı olsun. Bu da bizim səlahiyyətimiz daxilində deyil. O adı, şəhidin adının əbədiləşdirilməsi Nazirlər Kabinetindən asılıdır. Şəhid ailələri deyir ki, həmin Nazirlər Kabinetinə müraciət etməyimizə baxmayaraq, məsələ öz həllini tapmır ki, tapmır. Orda da bizə bildirirlər ki, ancaq 4 medal alanların adları əbədiləşdirilir.

Bu müəmmalı cavablar şəhid ailələrini razı salmır. Əgər hər hansı insan Vətən uğrunda şəhid olubsa, bunlar arasında heç vaxt ayrı-seçkilik salmaq həqiqətə uyğun deyildir. Yəni, 3-4 medal alan da şəhiddir, heç medal almayan da. Və şəhidlər arasında heç bir fərq ola bilməz. Kimsə bu fərqi qoyursa, o yalnış addım atır. Və şəhidləri medal alanlar və almayanlara bölmək də hardasa bir ədalətsizlikdir. Əgər Vətən uğrunda döyüşərək şəhid olubsa, onların hamısı bu Vətən, bu millət üçün doğmadır, əzizdir. Rayon icra hakimiyyətləri başçıları şəhid ailələrinə çox vaxt arxa durur və kömək göstərir. Amma gəlin bununla razılaşaq ki, şəhidlərin adının əbədiləşdirilməsində bir çox başçılar ləng hərəkət edir, yuxarılardan tapşırıq gözləyir. Başqa sözlə demiş olsaq, onların şəhidlərlə bağlı ideyaları və düşüncələri bir qədər zamanla ayaqlaşmır. Təbii ki, hər şeyi icra hakimiyyətinin üstünə atmaq ədalətsizlik olardı. Amma elə məqamlar var ki, o şəhid ailələrini icra başçıları qəbul edərkən və dinləyərkən səmimi və diqqətli olmalıdırlar. Bəzən bir səmimi söz şəhid ailəsinin yarasının sağalmasına məlhəm ola bilər...

...Və bir də ola bilər bütün rayonlarda şəhidlərin adlarına məktəb, xəstəxana, küçə, bağça vermək mümkün olmasın. Amma ən azından onların hamısının xatirə kompleksini bir yerdə yaratmaq və orda onların şəkillərini vurmaq bir o qədər də çətin deyildi. Şəhid ailəsini o adam başa düşər ki, onun da doğmalarından kimsə şəhid olsun. Əmisi oğlu, dayısı oğlu yox ey, övladı! Bax, onda bu dərdi, bu kədəri duymaq və anlamaq o qədər də çətin olmaz. Şəhidlərin adını əbədiləşdirərkən onların ailələrini süründürmək, ötür-ötür oyununa salmaq özü ən böyük günahdır. Əgər bir işi bacarmırsınızsa, onda o şəhid ailəsinə demək lazımdır ki, bu işə bizim gücümüz çatmır. Yoxsa, yalançı vədlərlə "məsələ bu gün həll olunacaq, sabah yoluna düşəcək" - deyib onları yola vermək lazım deyil.

**Hər halda, istər medalı olsun, istərsə medalı olmasın. Hər bir şəhidin adı gec-tez əbədiləşdirilməlidir. Ən azından ona görə ki, nazirindən tutmuş icra başçısına qədər və eləcə də digər məmurlar o şəhidlərin qanı və canı hesabına bu vəzifədə əyləşiblər. Onlar da zəhmət çəkib şəhidlərin adının əbədiləşdirilməsi üçün ciddi addımlar atmalıdır. Bu addımlar atılarsa, şəhid ailələrinə bir təsəlli olar, şəhidlərin ruhları isə narahat olmaz...**

**Faiq QİSMƏTOĞLU**

# Polad Haşımova qarşı təxribat - Şəkilləri zibillikdə aşkar edildi

**Bu günlərdə "Ədalət" qəzetinin redaksiyasına şəhidlərimizin təhqir olunması barədə məlumat daxil olub. "Dini müzakirələr"qrupunun admini Elmira Rüstəmova redaksiyamıza müraciət edərək bildirib ki, Bakıda zibilliklərdə üstündə şəhid generalımız  Polad Həşimov da daxil olmaqla bir neçə şəhidimizin şəkli yapışdırılmış su butulkaları aşkar edilib. Araşdırmalardan sonra bu butulkaların Bakı şəhərində fəaliyyıt göstərən "Ümid" Xeyriyyə Cəmiyyəti adlı qurumun ehsan kimi payladığı məlum olub.**

Müraciətdə deyilir:

"Zibillikdə aşkar edilən su kolilərinin üstündə şəhid general Polad Həşimov da daxil olmaqla 44 günlük Vətən Müharibəsində torpaqlarımızın azadlığı uğrunda rəşadətlə döyüşərək canlarından keçən qəhrəman şəhidlərimizin şəkillərini əks olunub. Məlum olub ki, bu su qabları Kərbəlada öldürülən imamlara ehsan olaraq insanlara paylanılıb. Bu insanlar şəhidlərimizin şəkli olan plastik butulkaların zibilikdə aşkar edilməsində məsuliyyət daşıyaraq onların xatirəsini təhqir ediblər. Əslində heç bir qanunu icazəsi olmadan din pərdəsi altında qanunsuz fəaliyyət göstərən bu insanlar Məhərrəmlikdə ehsan verirdilərsə niyə o butulkaların üstündə Kərbəla şəhidləri deyil, mənim torpağımın uğrunda canından keçən əziz şəhidimin şəklini vurublar? Ümumiyyətlə, o insanların nə ixtiyarı var ki, şəhidliyi ilə xalqımızın birləşib Qarabağın azad olunmasına səbəb olan mənim milli dəyərimə hörmətsizlik edirlər? Rica edirik ki, şəhidlərimizə hörmətsizlik edən bu insanların layiqli cəzalarının alınması üçün bu məsələni ictimailəşdirəsiniz."

Araşdırmamız zamanı məlum oldu ki, indiyə qədər qeyri-qanuni fəaliyyət göstərən "Ümid" Xeyriyyə Cəmiyyəti bu məsələ sosial şəbəkələrdə müzakirəyə çıxarılandan sonra "Qafqaz Media" İctimai Birliyinin möhürü ilə "qanuniləşdirilib". Bu cəmiyyətin rəhbəri də dini fəaliyyət pərdəsi altında ölkəmizdə İranın ruhani hakimiyyətini təbliğ edən Raya Məlikovadır.

O, öz "Instagram" və "Facebook" səhifələrində Azərbaycan dövlətini və ölkə başçısı İlham Əliyevi dəfələrlə təhqir edən İran generallarını mədh edən paylaşımlar edib. Və üstündə şəhidlərimizin şəkilləri olan su butulkalarını da guya ehsan kimi paylayıb.

Məsələyə münasibət bildirən ***Milli Qəhrəmanımızın anası Səmayə xanım*** bildirdi ki, Polad Həşimova İranın verdiyi "Qasim Süleymani" medalından imtina edəndən sonra şiə təriqətinə məxsus insanların qınağı ilə üzləşib və "Ümid" Xeyriyyə Cəmiyyətinin bu əməlini təxribat və oğlunun ruhuna təhqir kimi qəbul edir:

"Həmin qadın (Raya Məlikova) gəldi məndən üzr istədi, amma mən qəbul etmədim və dedim ki, halallığını vermirəm. Mənim oğlum vətən uğrunda şəhid olub, onu heç bir təriqətə bağlamasınlar. O əsl müsəlman idi, heç bir təriqətə məxsus deyildi. Mən sizin qəzetiniz vasitəsilə hüquqü-mühafizə orqanlarından mənim şəhid balalarımın ruhunu təhqir edənləri layiqi olduqları cəzaları verməyi xahiş edirəm."

Ümumiyyətlə, Vətən Müharibəsindən sonra şəhidlərimizin adından istifadə edib fırıldaqçılıqla məşğul olanların sayı artıb. Bəzən insanlarımızın həssaslığından istifadə edən dini sektalar şəhidlərimizi Kərbala şəhidləri ilə əlaqələndirib guya xeyriyyəçilik adı altında İran hakimiyyətinin təbliğatı ilə məşğul olurlar. Xüsusən İran rəsmilərinin son zamanlar  ölkəmizə qarşı təxribatçı və təhdid dolu bəyanatların səsləndirdiyi bu həssas dövrdə haqlı olaraq cəmiyyətimizdə narazılıq yaradır.

***İlahiyyatçı Elşad Miri*** sözü gedən məsələ barədə fikirlərini "Adalet.az"-a bölüşərkən dedi ki, "Ümid" Xeyriyyə Cəmiyyətinin şəhidlərimizin şəkillərini su butulkalarının üstünə yapışdırıb ehsan paylaması ilk baxışda müsbət addım kimi görünsə də, əslində hörmətsizlikdir. "Normal düşünəyə malik insan bilir ki, su içiləndən sonra butulkası zibilliyə atılacaq. Şəhidlərimizin şəkillərinin zibilliyə atılacaq butulkanın üstünə vurulmasının bir adı var, təxribat. O insanlar əvvəlcədən xalqımızın Qarabağ şəhidlərinə çıx həssas yanaşdığını, xüsusən də Polad Həşimov kimi xalq qəhrəmanının qırmızı çizgimiz olduğunu anlamamış deyildilər və hansı təpkinin olacağını da bildikləri üçün düşünülmüş şəkildə bu təxribata gediblər. İndi gəlin şəhid övladının rəsmini zibillikdəki butulkanın üstündə görən ana hansı vəziyyətə düşəcəyini bir anlığa təsəvvür edək. Mən üzümü "Ümid" Xeyriyyə Cəmiyyətinin əməkdaşlarına tutub soruşmaq istəyirəm ki, əgər üstündə öz şəhid övladlarının rəsmi olan butulkanı zibillikdə görsəydilər hansı hissləri keçirərdilər?",- deyə ilahiyyatçı bu hadisənin səbəbkarlarına sualını yolladı.

***Millət vəkili Ceyhun Məmmədov*** da əşyaların üstünə şəhdlərimizin şəkillərin yapışdırılmasının



əleyhinədir. Şəhidlərimizi su butulkalarının üstündə deyil ürəyimizdə yaşatmalıyıq deyən millət vəkilinin sözlərinə görə, "Ümid" Xeyriyyə Cəmiyyətinin üzvləri belə bir xoşagəlməz halların meydana gələcəyini əvvəlcədən  başa düşməliydilər.

"Ümumiyyətlə, son dövrdə şəhidlərimizin şəkillərinin bir çox əşyaların üzərinə yapışdırılmasını müşahidə edirik. Şagirdlərin istifadə etdikləri dəftərlərdən tutmuş bloknotlaradək. Bu gün də butulkaların üzərinə şəkillərini yapışdırmaqla onlara hörmətsizliyi müşahidə edirik.

Bundan sonra insanlarımız bu prinsiplərə əməl etsinlər. Çünki şəhidlərimiz bayraq, himn və gerb kimi bizim milli dəyərlərimizdirlər",- deyən C. Məmmədov şəhidlərimizdən dini təbliğat vasitəsi kimi istifadə olunmasından da narahat olduğunu dilə gətirdi.

"Şəhidlər hansısa dini sektanın deyil, hamımızındır. Bizim şəhidlərin arasında qeyri müsəlman vətəndaşlarımız da var. Ona görə də, onların arasında ayrı seçkilik yaratmaq təxribatdan başqa bir şey deyil. Milliyətindən, dinindən və irqindən asılı olmayaraq bütün şəhidlərimiz bizim üçün əziz və müqəddəsdir",- deyə millət vəkili əlavə etdi.

Şəhid generalımız ***Milli Qəhrəman Polad Haşımovun bacısı Kəmalə Haşımova*** "Adalet.az"-a açıqlamasında bu hadisədən sarsıldığını vurğuladı. Onun sözlərinə görə, bundan əvvəl də belə neqativ hallarla bağlı hüquq-çühafizə orqanlarına müraciət olunsa da, heç bir ölçü götürülməyib.

"Bunun ən başlıca səbəblərdən biri qanunlarda olan boşluqlardan ibarətdir. Çünki 30 ildən sonra torpaqlarımızı müharibə yolu ilə azad edən şəhid və qazi məsələsisinə xalqımız çox həssas yanaşır. Amma bu 30 ildə də çoxlu şəhidlərimiz və qazilərimiz olub. Amma onlarla bağlı bir qanun yoxdur. Düşünürəm ki, bu kimi məsələlərdə Türkiyədəki qanuna bənzər xüsusi bir qanun olmalıydı. Çünki Türkiyədə şəhid və qazilərin haqları ən yüksək səviyyədə qanunla qorunur. Əminəm ki, Polad Haşımovun şəklinin zibillikdəki butulkanın üstündə olmasından milyonlarla insan narahat olub. Amma bu məsələ qanunla tənzimlənsə buna görə sərt cəzaların olması insanları belə addım atmaqdan çəkindirər. Çünki qanunvericilikdəki bu boşluqdan istifadə edən bir çox işbazlar meydana çıxıblar.

İnsanların şəhid və qazi məsələsinə həssas yanaşmasından istifadə edib qaz vurub-qazan dolduranların sayı günbəgün artır. Fərqli məqsədlərlə şəhidlərin və qazilərin adından istifadə edib xeyriyyə aksiyası adı altında pul yığıb, özlərini reklam edib, reytinq qazanırlar. İndiyədək heş kimin tanımadığı adamlar şəhidlərin adından şou göstərməklə məşğuldurlar. Bizim müqəddəs şəhidlərimizə toxunanlar ictimai qımnaqla yanaşı həmdıə sərt cəzalandırılmalıdırlar. Polad Haşımovun bacısı olaraq mən sizin qəzetiniz vasitəsilə bir daha tələb edirəm ki, hüquq-mühafizə orqanları bu kimi neqativ halların qarşısını sərt formada alsınlar!",- deyə Kəmalə xanım millət vəkillərini bu məsələyə ciddi yanaşmağa çağırdı.

**İltifat HACIXANOĞLU**

**Vüqar Abbasov**
**"Ədalət"in Niderlandda xüsusi müxbiri,**
**vugarabbasov@hotmail.com**

# Məmləkət xatirələri



*"Keçmiş  xatirələrdə, gələcək isə xəyallarda yaşayır"*

*Əbu Turxan*

### *Dördüncü yazı*

### *Diaspor barədə, qısaca*

**... "Maraqlı sual idi. Davamı növbəti yazımda" - ötən yazım (link: https://adalet.az/w226111) belə bitmişdi.  Söhbət etdiyim dostum "... Sən niyə Şuşaya getmədin? Komitə (Diasporla İş Üzrə Dövlət Komitəsini nəzərdə tutur) Azərbaycanda olan  diaspor nümayəndələrini Şuşaya aparırdı" - deyə sual vermişdi və sonra aramızda belə bir dialoq olmuşdu.**

***- Bilmirəm. Mənə deyən olmadı.***

***- Niyə?***

***- Bu sualın cavabı məndə deyil. Bəlkə də mənim burada olmağımdan xəbərləri olmayıb...***

***- Necə olmayıb, a kişi. Sən gəlməmişdən də fb-a yazmışdın ki, gələcəksən, gələndən sonra da burada olduğunu yazdın...***

***- Oxumamış ola bilərlər...***

***- Elə qəşəng oxuyublar ki... Günləri fb-dadır. Zatən işləri ancaq sosial şəbəkələrdə keçir.  Bu şəbəkələrdə yazdıqları əsl reallığı əks etdirsə idi, gərək dünya bizi çoxdan dəstəkləmiş olaydı. Sən indi bir tənqid yaz, həmən oxuyacaqlar və səni hər şeydən kənar tutmağa çalışacaqlar... Yaz deyəndə ki, sən elə yazırsan da. Bəlkə də səbəb budur...***

***- Ola bilər...***

***- İndi ora apardıqlarından kimsə yaşadığı ölkəyə geri döndükdən sonra yerli  mətbuatında Şuşa ilə bağlı nəsə yazacaq?***

***- Bilmirəm (və düzü bu yazını yazdığım dəqiqəyə kimi də belə bir yazı rastıma çıxmadı)...***

**Dostumla olan dialoqa burada son qoyuram. Sözügedən komitə ilə bağlı qısa olaraq onu qeyd edim ki, onların mənə münasibəti "Nə yardan doyur, nə əldən qoyur" məsəlini xatırladır. ...Niderlanda qayıtmağıma bir neçə gün qalmış komitənin bir əməkdaşından mesaj aldım, mənimlə görüşmək istəyirlərmiş. Kiminlə görüşəcəyimi soruşanda, Elşad müəllimlə (şəxsən tanımıram, sədrin müavinidir)  dedilər. Nəsə, kimsə ilə görüşməkdən qaçmayan biri kimi razılaşdım. Görüş günü, təyin olunan vaxta iki saat qalmış əlaqə saxlayıb  bildirdilər ki, xəbərləri olmadıqları təcili  bir tədbirləri (?!) çıxıb, "Görüşü iki saat sonraya keçirtmək mümkündürmü?" - deyə soruşdular. Mən də bunun mümkün olmayacağını bildirərək, "Çünki həmən saatda başqa bir adamla  görüşüm var, adam mənə görə vaxt ayırıb və ona hörmətsizlik edib görüşü ləğv edə bilmərəm" dedim və əlbəttə ki, qısa telefon danışığımızın hamısını burada yazmağa ehtiyac yoxdur.  Anlayıram ki, rəhbər vəzifəlilərin gözlənilmədən tədbirləri çıxa bilər və çox vaxt da bu anlaşılan olur. Mənim vəzifəm yox, filan yox, kim məni anlayar?!**

**Qısası, sözügedən komitə ilə də, diasporun işinə müdaxilə edən heç bir kəslə də hər hansı münasibətim yoxdur. Onlar etdiklərini diasporumuza, onun fəaliyyətinə dəstək hesab etdiklərini deyirlər. Mənsə hesab edirəm ki, onların dili ilə desək,  dəstəklərinin nəticəsidir ki, bir çox ölkələrdə Azərbaycan diasporunu Azərbaycan hökumətinin nəzarətində  bilirlər və açıq desək, diasporun nüfuzu çox azdır. Xaricdə yaşayan insanlarımızın çoxunda da inam hissi qalmayıb. Təsəvvür edin ki, əvvəllər insanlarımızın əksəriyyəti tədbirlərə öz hesablarına və həvəslə gedərdilər. İndi isə sözügedən komitə yol pulunu da ödəyir, yenə də əvvəlki kimi izdiham alınmır. Kənara çıxmadan özümü deyim, vaxtilə, hələ nəyəsə inamım olanda Niderlanddakı (az qala hamısına), Belçikada, Almaniyada və.s.  olan tədbirlərə öz hesabıma qatılsam da, indi heç bir tədbirə getməyə istəyim belə qalmayıb. Adam sayı artırıb kimlərinsə bundan şəxsi adları üçün faydalanması və.s. bu kimi hallar adamı yorur.**

**Diaspor barədə bu qədər,  bəlkə nə vaxtsa geniş yazdım.**

### *Son, hələlik son xatirələr*

**Xatirələr sonsuzdur, həm də məmləkətlə bağlı.  Yazsam, ən azı bir kitablıq mövzum var.**

**Açığı, hər addımda nəsə gərginliklə rastlaşmaq mümkündür. Təsəvvür edin, Avropadan gəlmişəm və təbii ki, özümlə gətirdiyim də avrodur və onu manata dəyişmək üçün mütləq banka getməlisən. Banklarda isə növbə o qədərdir ki, ən azı 20-30 dəqiqəni pul dəyişməyə həsr etməlisən. Sual olunur, niyə? Ölkəyə gələn turist vaxtını niyə belə şeylərə həsr etməlidir? Hələ əgər bazar günüdürsə  və cibində manat qalmayıbsa (söhbət turistlərdən gedir)  get başının çarəsini tap, çünki bazar günləri banklar işləmir və demək ki, pulunu dəyişmək imkanın da yoxdur.**

**Bir də bura turistlərin Miqrasiya İdarəsində qeydiyyatdan keçməsini və.s. də əlavə etsək, turistin ölkədəki "rahatlığını" təsəvvür etmək çətin deyil. Bunu "Asan Xidmət"də də etmək mümkündür.**

**Amma budəfəki səfərimdə şahidi oldum ki, artıq  "Asan Xidmət"in xidmətlərindən istifadə etmək elə də asan deyil. Təsəvvür edin, şəxsiyyət vəsiqəsini almaq, dəyişmək üçün neçə gün sonraya növbəyə yazılmalısan, o da hələ yazıla bilsən... Əksər digər xidmət yerlərində yaradılmış süni növbələr, əngəllər...**

**Gördüyüm, yazmaq istədiyim o qədər məqamlar var ki, hansını deyim, hansından yazım. Bir onu bilirəm ki, fikrimcə, insanlarımız bundan daha yaxşısını haqq edirlər. Ancaq digər tərəfdən də "Narazı olduğumuz məqamlarda öz günahımız yoxdurmu? Sənin, onun, mənim və bizim günahımız yoxdurmu?" deyə düşünməyə bilmirəm.  Var, təbii ki, var. Övladlarımıza orta məktəblərdə nəyinsə hesabına qiymət yazdıran, ali məktəblərə nəyinsə, kiminsə hesabına qəbul etdirən bizlər deyilik? İşə qəbul olunmaq da belə.  Dükanda, bazarda və.s. digər bu kimi yerlərdə ilk fürsətdə özümüzü aldadan özümüz deyilikmi? Elə mənim işimi rüşvətsiz həll etməyən sən, sənin işini rüşvətsiz həll etməyən mən deyilikmi? Gözümü açandan belə gördüm, indinin söhbəti deyil axı bunlar. Gördüyümüz hər qanunsuz işi kimlərisə "görərək" qanuni don geyindərən də özümüzük, kimisə "görməyə" və qanunsuz işimizə qanuni don geyindirməyə gücümüz çatmayanda şikayət edən də bizik. Bütün bunların nəticələrini məmləkətdə hər addımda görmək mümkündür. Hər birimiz, öz məhəlləmizdən tutmuş, şəhərə, ölkənin ən ucqar yerlərinə qədər bu nəticələri görə bilərik. Kiçik oğrulara kəc baxıb, böyük oğruları ayaq üstündə qarşılayanda fərqli nəticələr görəcəyimizə inanmaq sadəlöhvlük olardı.**

**Ötən yazımda yollardakı olan, olmalı olan yol işarələrinə, hərəkəti tənzimləməli olan işarələrə toxunmuşdum. Yenə də ona toxunmaq istəyirəm. Araşdırın da,  yollarımızdan birinin bir neçə km.-lik məsafəni götürün və araşdırın ki, nə qədər işarə olmalıdır və nə qədəri var? Araşdırmaq çətindir? Deyil, amma etmirik. Xəstəxanaların durumuna baxın. Yazan da var, deyən də. Tədbir görən varmı? Yoxdur.  Siyahını uzatmaq olar. Bütün bunlar  gündəlik həyatımızdır və məsələ burasındadır ki, bunlar həm də sadaladığım bütün neqativ hallara səbəb olanların da gündəlik həyatının bir hissəsidir. Onlar da bu yollardan keçirlər, onlar da bu xidmətlərdən istifadə edirlər və.s. Axı onlar da bizlərdəndirlər... Hələlik imkanları bir qədər rahat yaşayışlarına şərait yaradır. Əgər bir gün əllərindəki "piy" əllərindən düşərsə, sənin, onun kimi yaşamağa başlayacaqlar... Bax onda onlar nə etdiklərinin fərqində olacaqlar. Bax onda onlar da şikayət etməyə başlayacaqlar. Axı onlar da bizlərdəndirlər...**

**"Məmləkət xatirələri" silsiləsindən yazılarıma bu yazı ilə hələlik son qoymaq istəyirəm. Əlbəttə, məmləkətlə bağlı yazılarım olacaq, ancaq başqa adlar altında. Növbəti yazılarımın birini isə məmləkətlə bağlı arzularıma həsr edəcəm...**

### *Geri dönüş*

**Bəli, Niderlanda qayıdırıq. Bəzən anlamaqda çətinlik çəkirəm; biz Niderlanda, yoxsa Azərbaycana gələndə geri dönmüş oluruq?**

***Haşiyə: Bir neçə il öncə kulis.az saytı ən qısa hekayə yarışı keçirirdi və mən də ora "Son göz yaşı" adlı bu hekayəmi göndərdim:***

***"Qürbətə gedəndə oğlum 6, qızım 8 yaşında idi. Yol boyu qucağımda yatan oğlum gözünü açıb: "Bura haradır?" - soruşdu. "Niderland"- dedim. Bir şey anlamasa da: "Azərbaycana nə vaxt qayıdırıq?" - deyə soruşdu. "Bilmirəm" - dedim. Uşaqların gözündə yaş göründü...***

***20 il sonra Azərbaycanın hava limanında, oğlumun qucağımda rahat yatan oğlu Azər gözünü açıb: "Bura haradır?" - soruşdu. "Azərbaycan" - dedim. Azər: "Niderlanda nə vaxt qayıdırıq?"- soruşdu. Gözlərimin dolduğunu hiss etdim. Sonra nə olduğundan xəbərim olmadı. Bu, mənim gözlərimdən çıxan son yaş oldu..."***

**...Hava limanının binasına kənar adamları, qarşılayıb yola salanları buraxmırlar deyə kimsənin bizi yola salmasına razı olmadım. Hamı ilə görüşdükdən sonra evimizə ötəri nəzər salıb maşına oturuıram, kirayə etdiyim maşınla hava limanına yola düşürük.  Qəribə təsadüf idi, radionu açan kimi qürbətə aid mahnı səslənir. Doluxsunsam da, büruzə verməməyə çalışıram...**

**... Hava limanında bütün lazım olan mərhələləri keçdikdən sonra gözləmə zalındayıq. Cibimdə  bir qədər manat var.  Özümə və həyat yoldaşıma içmək üçün bir şeylər aldıqdan sonra qalan pula hava limanındakı kitab mağazasından kitab almağa qərar verdim.  Satıcı kitablarla bağlı çox məlumatlıdır, hansı kitaba toxunuramsa onun müəllifi və kitab barədə məlumat verir. Doğrusu çox xoş idi.  Kitabları seçdim və qalan pulumu bir də saydım, təxminən iki manat çatmırdı. Satıcı dedi ki, narahat olmayın, endirim verəcəklər. Beləcə kitabları alıb qayıdıram və bu ktabların birini əlimdə saxlayıram ki, təyyarədə oxuyum.**

**... Təyyarəyə oturmuşuq. Sərnişinlərə baxıram və düşünürəm ki, görəsən bunların nə qədəri başqa məmləkətlərdə yaşayan soydaşlarımızdır? Yadıma Z. Yaqubun bu misraları düşür:**

***Gözünün yaşında boğulan, axan,***
***Eldən aralanıb gedən yazıqdı.***
***Gözləri həmişə qürbətə baxan,***
***Qəribi çox olan Vətən yazıqdı.***

**... Təyyarə sürətlə yerindən tərpənir və getdikcə sürətini artırır. Mənsə gözlərimi qapamışam, bəzən nələrəsə açıq gözlə baxmaq adamı vahiməyə salır.**

**... Təyyarə artıq səmadadır. Hava limanından aldığım kitabı çıxardıram oxumaq üçün. Gözüm kitabın arxasına yapışqan  kağıza yazılmış qiymətə sataşır. Qopardıram və yapışqan kağızın altından kitabın gerçək qiyməti çıxır, üstünə yapışdırıldığından təxminən bir neçə manat ucuz imiş.  Gülümsəyirəm və ürəyimdən N. Hikmətin sözləri keçir: Eh, məmləkətim, məmləkətim...**

**Niderland-Azərbaycan-Niderland**



Sunay Akın

*Sunay Akın 1962-ci ildə Türkiyənin Trabzon şəhərində anadan olub. S.Akının on yaşı olanda ailəsi ona yaxşı təhsil verə bilmək üçün İstanbula köçüb. O, orta məktəbi İstanbul Heydərpaşa Liseyində başa vurub. Sonra İstanbul Universitetinin Fiziki Coğrafiya fakültəsinin məzunu olub.*

*İlk şeir kitabı 1989-cu ildə "Makilər" adı ilə yayımlanıb. Cəmal Süreyanın ad verdiyi həmin kitabdan sonra "Antik dərdlər", "Qəza bəzəyi", "62 Dovşanı" və sair şeir kitabları işıq üzü görüb. 1987-ci ildə "Nöqtəli vergül" adlı şeir silsiləsi ilə Xəlil Qocagöz, 1990-cı ildə isə Orhon Murat Arıburnu şeir mükafatlarını qazanıb.*

*Beş il Mərmərə Universitetinin Gözəl Sənətlər fakültəsində dərs deyib. Tanınmış şair həmin illərdə bir nəfərlik tamaşalar hazırlayıb və həmin səhnə əsərlərində rol oynamağa başlayıb.*

*2005-ci ilə 11 il ərzində dünyanın dörd bir tərəfindən yığdığı oyuncaqları İstanbul Oyuncaq Muzeyini ailəsinə aid dörd mərtəbəli tarixi bir binada açıb. Muzey 2010-cu ildə Avropada İlin Muzeyi seçilib. S.Akın "TRT 2" və "CNN Türk"də "Studiya İsyanbul", "İzlər", "Axşama doğru kimi mədəniyyət və sənət verilişləri aparıb. Həmçinin "Yaşam radio", "Radio Kent", "Best FM-də" radio kanallarında proqramlar hazırlayıb.*

*Şairin müxtəlif mövzularda "Xəyal qəhrəmanlar", "Bir cüt ayaqqabı", "Ay oğrusu", "Qırdığımız oyuncaqlar", "Onlar həmişə ordaydı", "Əvvəlcə uşaqlar və qadınlar", "Qız qülləsində qızıldərili", "İstanbulun Nazim planı", "Şeir ölkəsi" və sair kitabları çap olunub.*

## Dodaq yeri

*Çay stəkanındakı*
*dodaq yeri*
*qədər də*
*uzaq qala bilmərəm*
*gözlərinə*

*istərəm yaxın olsun*
*əllərimə əllərin*
*yanındakı beton binaya*
*söykənən*
*köhnə bir ev kimi*

*səni mismar kimi*
*vurmuşam beynimə*
*və bütün kəlbətinləri yığıb*
*tolazlamışam dənizə*

## Ayrılıq

*İki rels kimiyik*
*bir qatarın yolunda*
*guya sonuncu dayanacağın*
*yaxın olması*
*nəyi dəyişir ki*

## Ayna oyunu

*Məhəllədəki ən gözəl qızın*
*divara saldığı aynadan*
*əks olunan işığı*
*o qədər uşaq*
*əllərinin arasında*
*qəribədir ki*
*həmişə mən qamarlayardım*

## Böcək

*Ehmalca verə bilərsənmi*
*son nəfəsini*
*yolunu çaşmasın deyə*
*yastığında*
*gəzən*
*böcək*

## Dustaq

*Dustaq olacağını bilə-bilə*
*yenə də bu səhər*
*dəmir barmaqlıqlar arasında*
*günəş ehmalca sızdı içəri*

*Görüş günləri çiçək gətirmək*
*qadağan olunan gün*
*zindan divarının o üzünə*
*sarmaşıq toxumu*
*əkib anam*

*ancaq heç əl yellədib*
*sağollaşa da bilməmişdim onunla*
*saatlarla növbə gözləyib*
*doldurduğu içməli suyu*
*arxamca atanda*

## Liman

*Limana sığınan*
*dəniz*
*bəsdir gizləndin*
*döyüş gəmiləri*
*çoxdan keçib*
*gediblər*

## Qırmızı

*Sevgilim hirslənmə*
*və məni səhv başa düşmə*
*dodaqlarını qırmızı boyayanda*
*uşaq vaxtı pulum çatmayan*
*qırmızı alma şirniləri düşür yadıma*

## Çağdaş

*Bina evindəki uşaqlar*
*ağız dadıyla yeyirlər*
*göydən düşən üç almanı*
*anamın hər gecə danışdığı*
*nağıllar qurtaranda*

*mənəsə saplağı qalır*
*çünki zirzəmidədir evimiz*

## Gedərkən

*Gedərkən*
*qəsdənmi*
*özünlə aparmamasısan*
*yastığındakı çuxuru*

*halbuki sənə gəmi limanında*
*və qatar stansiyasındakı*
*saatın dəqiqliyi qədər*
*inanırdım*

*məni sənin kimi*
*bircə də anam tərk etmişdi*
*göbəyimdə hələ də durur*
*onun yoxluğunun*
*yeri*

## Ağ

*O qara dərili idi*
*güllələyənlərsə ağ*
*silah səsindən*
*ürkərək göy üzünə*
*uçan quşlarsa*
*ağappaq*

## Naftalin

*çatışmayan tərəfləri vardı*
*sevgimizin*
*bir filmdə*
*üç-dörd statist döyüb*
*ata minməyən*
*Cüneyt Arkın kimi*

*Xəbərin olsun*
*köhnə əşyalar alana satmadım*
*yırtıq ayaqqabılarımı*
*onlardan necə ayrıla bilərəm*
*qapınızın ağzında*
*azmı çıxardıb*
*geymişəm*

*Naftalinlədim məndə qalan yun jaketini*
*sizə demişəmmi*
*naftalin*
*güvələrə qarşı*
*kimyəvi silahıdır*
*xatirələrin*

## Hücum əmri

*Əmr verən generalın*
*gözünə qum dənəsi*
*düşdü deyə*
*həmin vilayətin sakinləri*
*iki dəqiqə çox yaşadı*

## Nöqtəli vergül

*vergül*
*aramsız gurlayan*
*təbil toxmağıdır*
*sözləri*
*kağızlardakı toya çağırır*

*nöqtə*
*sən aşağı düşmə*
*sonradan görmək*
*mətnin azadlığına*
*axırına çıxar*

*elə ki bir yerə düşdülər*
*o saat üstə çıxar*
*amansız nöqtə*
*boynubükük*
*yazıq vergül isə*
*əzilər altda*

## Çoban

*Qoyunlarsa səs çoxluğu ilə*
*keçini özlərinə*
*rəhbər seçiblər*
*amma nədənsə sürünü*
*qurdun qohumu*
*köpəyə tapşırıb*
*çoban*

## Birgə

*Deyirlər ki insanların*
*hamısı bir deyil*
*bir əldə eyni boyda olmayan*
*beş barmaq kimi*

*ancaq əslində*
*neçə yorğun*
*ustanın dodaqları*
*uzanır su dolu ovcuma*

*əlimin*
*beşi də bir olmayan*
*barmaqlarını*
*bir yerə cəm edəndə*

## Amma ölüm

*Azadlıq kitabının*
*səhifələri arasına*
*cəlladların qurduğu*
*dar ağacındakı ip*
*yarımçıq oxunmuş*
*səhifəni göstərir*
*oxumağa davam edən insanlara*

*cırılan toy şəkillərinin*
*qırılan çərçivələrinin*
*küçəyə tolazlanan*
*taxtalarından düzəldilir*
*uşaq tabutları*

*qızların heç biri*
*boynundakı bilərziyin klonunda*
*sevgilisinin şəklini saxlamır*
*amma ölüm*
*səhifələri cırılmış*
*bir sevgi romanının*
*içində gizlədirlər*
*tapançalarını*

## Kömür

*Yenə bir kömür kükrədi*
*sobada*
*bu dəm itkin bir mədənçinin*
*qəlbi həmahəng döyündü*
*isti otaqda*

## Reklam

*Nəhəng divarı boyadılar*
*doldurdular rəngbərəng yazılarla*
*əlində limonat şüşəsi olan oğlan*
*və bir də gülən bir qız şəkli çəkdilər*
*ağzı da bir qarış açıq*

*halbuki divarın dibində*
*ağlayırdı sarmaşıq*

## Bulud

*Göy üzündəki*
*kiçik bulud*
*ürək formasına alsa da*
*yağış yağacağından*
*ümidimizi üzmüşük*

## Göz yaşı

*Odunsuz bir sobanın*
*yanında titrəyən*
*uşağı yağış görsə*
*göz yaşlarını*
*daman tavandan*
*dinməzcə axıdar otağa*

## Dişi quş

*Quru bir ot*
*kimi yaşayıram*
*gözlərdən uzaq*
*cığırlı bir yolun*
*ucqarında*

*yeganə günahım*
*baltanın qanlı*
*oyunlarına*
*sap olmamaqdır*

*amma yenə də*
*qəlbim ümidlə doludur*
*bəlkə bir dişi quş*
*gəlib məni aparar*
*budaqdakı yuvasına*

## Revmatizm

*Ey yaş paltarların üstünə*
*qonan sərçə*
*o saat uç ordan*
*yoxsa sən də anam*
*kimi xəstələnib ölərsən*

## Sevmək

*Söyüd budaqlarına sığınmış*
*köçəri quşun*
*qar dənəcikləri arasına*
*düşən bəyaz tükünü də*
*görə bilmək -*
*bax, budur sevmək*

## Ticarət

*Uşaq xəstəxanasının*
*qarşısındakı oyuncaq satan*
*günbəgün artan qazancı üçün*
*şükür edir Tanrıya*

*Yem satan qocanın*
*illər öncə qanadlarına*
*daş tolazladığından xəbərsiz*
*hər səhər eyni meydanda*
*cəm olur göyərçinlər*

*Və kitab satılan dükanın*
*vitrinin önündə*
*səf-səf düzülür*
*şairin ölümündən sonrakı*
*bütün kitabları*

## Süngü

*Qardaş malı*
*kimi bölmək üçünmü*
*süngünü uzatdın*
*əlimdəki*
*almaya*

## Park

*Boynunu əyib*
*parka tərəf*
*səki daşları arasında*
*açan çiçək*

## Bülbül

Handan Ferhanoğluna

*Üzümdəki hüznün səbəbi*
*saçlarımın tökülməsi deyil*
*səbəb gün keçdikcə səsini*
*daha az eşitməyimdir*
*məhəllə bərbərindəki*
*bülbülün*

## Qapı

*Kəsilmiş bilənglərimi göstərərək girdim*
*kinoteatrın qapısından içəri*
*o mən idim səfərdən əvvəl*
*"qorxaqlar arvadlarının*
*yanına qayıtsın"*
*deyərək padşahın ordu sıralarını*
*tərk edən yeniçəri*

*qapının ağzındakı məktubları görəndə*
*eyvana asdığın sinəbəndindən*
*damcılayan sudan islanan pişiyin*
*tüklərini oxşayaraq uzaqlaşdım*
*o qüllələr ki hüznə bir bıçaq kimi*
*saplanan sunaya kın*

*pendir boşqabı*
*və su qatılmış rakı qədəhi*
*Qız Qülləsidir çilingər süfrəsinin*
*sən ki bu mənzərədə görünmürsən*
*işıqlarını yenicə yandıran*
*bir qayıq gözəlliyində axşamın*

*qapımı döysən bir gün*
*eşikdəki ayaqqabılara aldanıb*
*elə bilmə ki evim dolu adamdı*
*sadəcə tullamağa əli gəlməyən anam*
*onları düzüb tənhalığıma*

*gecənin qaranlığında*
*bir kinoteatr zalı kimi uzun şəhərdən*
*mənim getmək düşər payıma*
*çıxış qapısı kimi baxıram çoxdandır*
*göydələnlərin üstündə yanan*
*qırmızı işıqlara*

## Cemal Sürəyya

*Buzdağınamı dəydin*
*amma Titanik*
*kimi batdın*
*çünki bircə sən idin şeirin*
*dörd bacalı şairi*

*dalğaların sahilə atdığı*
*əşyalarını təlaşla yığanda*
*obrazının dərinliyinə baş vurmağa*
*nəfəsləri çatmadı*
*xilasedicilərin*

*bir gəmi kimi batmaq*
*yaraşırdı sənə*
*Qayığa minmək növbəsində*
*bənzəyən ömrün:*
*əvvəl uşaqlar və qadınlar minsin*

*Gülcemal gəmisini heç vaxt*
*görməmişəm*
*amma mənim tanıdığım Camal gül idi*

## Xərc

*Bilmirəm hansı göydələnin*
*kərpicləri arasındadır*
*əl-ələ gəzdiyimiz*
*və səni*
*ilk dəfə öpdüyüm*
*o gizli yer*

*amma bir qarğıdalı tarlasının*
*narahatlığını hiss edirəm*
*dağların arxasından*
*rayonun birinci göydələni görüləndə*

*indi kamaz-kamaz qum tökülür*
*tikilən binaların qarşısına*
*balıq qulaqlarını seçib məhv edirlər*
*eynən bir cinayətin izini itirdikləri kimi*

## Sarmaşıq

*Göydələnə dırmanan*
*sarmaşığın*
*neçənci mərtəbəyə qalxdığını*
*görməyə bəs edər*
*ömrüm*

## Əlifba

*Həm kar, həm laldı*
*sevgilisinin tənini*
*oxşayarkən*
*əlləriylə həm sevişir*
*həm danışır*

## Sərçə və pişik

*I*

*Artıq torpağın altını da tutur*
*telefon telləri*
*və bir qorxu*
*bürüyür sərçələri ürəyini*
*o vaxt ki,*
*görürlər pişikləri*

*II*

*görəsən qanırmı sərçələrin*
*niyə köç etmədiyini*
*sobanın yanmasını*
*gözləyən*
*pişik*

*II*

*Bircə külək gəlir*
*ölü sərçənin*
*dəfninə*
*və ustufca*
*tərpədir tüklərini*
*pişikdən öncə.*

## Sərçə

*Yem axtaran*
*sərçənin*
*ayaq izləri*
*görünməz*
*"qar" sözü*
*işlədilən şeirlərdə.*

## Dağ yolu

*Boyun məndən qısadır*
*kənd avtobusunun*
*dağa dırmanması*
*kimi uzanırsan*
*dodaqlarıma*

*neçə vaxtdı yolumun*
*toz-duman bürümür*

## Dəbilqə

*Torpağa hopub yağış*
*sükutlu gecədə*
*su içir köçəri quş*
*ölü əsgərin*
*tərsinə çevrilmiş dəbilqəsindən*

*əsgərlər bir-birinə*
*uzun ömür arzulayırlar*
*səngərlərin arasında*
*asqıraq səsini*
*eşitməmiş*

*Ölüm gözünün*
*odunu almazdı*
*əgər quş silah*
*səslərini eşidib*
*uçmasaydı*
*təlaşla və ürkərək*

## Qarımış qız

*Havayı zərf kimisən*
*üstündə ünvanın yazılıb*
*qalmısan evdə*
*necəsən Qız*
*Qülləsi*

## Təcrübə

*Nə yandır məktub zərfinin ucunu*
*nə də sevgi haqqında*
*səhifə-səhifə yazıb doldur*
*bircə zərfin ağzını bağlayanda*
*məhrəm dodaqlarını*
*dəli kimi toxundur*

## Liman

*Burdan ora qədər dibçəklər vardı*
*limana baxan*
*pəncərənizin önündə*
*və çiçəklərin arxasında dayanıb*
*çörək qırıntıları səpən*
*qağayı tək gözəl*
*bir ana*

*meydanda toplaşan qadınlar*
*limandakı bəyaz gəmini*
*işıqları yananda*
*elə həmin vaxt küçədən keçən*
*yaşıl kinoteatrda*
*bilet satan qızın*
*qeybətini eləməzdilər*

*anasının dizinin dibindən*
*ayrılmasan*
*sakit uşaq kimidir*
*dəniz*
*amma küçəyə çıxıb*
*dalğa olmaq keçir*
*ürəyindən*

## Antik dərdlər

*Dolanışıq üçün*
*neçə-neçə yaşlının*
*qədim İstanbul evlərindən*
*gətirdikləri əşyaların*
*üstünə qar yağa-yağa*
*satılır antik dərdlər*
*bazarında*

## Sənə yaxın

*Bir dost sevgisinə*
*elə*
*söykəmək istəyirəm ki başımı*
*ya çiynini ver sevgilim*
*ya da telləri qopmuş*
*bir kaman*

*Öz qanadının altına sığınmağa*
*Bir quş axtaran*
*evin kandarı kimiyəm sənsiz*
*ya da bütün balinalarını*
*sahilə*
*tolazlayıb intihar edən*
*dəniz*

*mən torpağa gömülmüş*
*qədim bir küpəm*
*və sən*
*ilk dəfə qazıntı aparan*
*arxeoloq ürkəkliyi ilə*
*götür*
*əlinə məni*

*çünki budur yeganə arzum*
*sənə yaxın olan Sunay Akın*

## At qoxusu

*Mənə İstanbulda*
*gəmi fitinin səsi eşidilən*
*evi göstərin*
*ki qapısını döyüb*
*o evdə yaşayanlara deyim*
*daha çox pişik balaları əzilsin deyə*
*köhnə limanları*
*sahil yoluyla ayırıblar*
*dənizdən*

*Əvəzində mən də sizə*
*Bülbülü öləndən sonra*
*yerində gözəllik salonu açılmayan*
*neçə məhəllə bərbərini*
*qaldığını deyərəm*
*ya da neçə şlyapanın*
*dustaq olduğunu deyərəm*
*qədim bir imarətin*
*asqısında*

*ya da neçə faytonçunun*
*artıq taksi sürdüyünü deyə bilərəm*
*amma öldürsəniz də deмərəm*
*özünüz baş sındırıb tapın*
*yan güzgüyə keçirilmiş muncuqlardakı*
*at qoxusunu*

## Ozan

*I*

*Həyatı sevməyin*
*tərəfdarı olmayan şair*
*imzanın*
*özünü mürəkkəb ləkəsi*
*saymamasıdır*

*II*

*Nə muştuq,*
*nə saqqal,*
*yerdə gördüyün*
*çörək parçasını*
*götür*

*III*

*Qoy xəncərlənsin*
*Vətənimin*
*neçə-neçə şairin qəlbi*
*bir uşağın tökülən*
*süd dişləri kimi*

## ŞİİRT

*Ovcunun qovduğu ceyran*
*asanca qaçıb*
*xilas olsun deyə*
*çiyin-çiyinə verib*
*yurdumun dağları*

*Vətənimizdəki böcəklərin*
*hamsını türməyə bassalar*
*onlardan ayrılıb o birilərdən ayrı*
*hücrəyə qonar*
*kitab güvəsi*

*bağlama kağızı kimi istifadə edirlər*
*baş örtüyünü vətənimdə*
*uşaqlıq xatirəsi kimi*
*günəşi bükürlər*
*gənc qızların saçlarından*

*və tank tırıtılları*
*altında şiirt*
*məhv olarkən şeirin problemlərini*
*müzakirə edirlər*
*yurdumun şairləri*

*Türkiyə türkcəsindən*
*dilimizə uyğunlaşdıran:*
*Fərid Hüseyn*

# Xalq artisti gizlinləri açdı



**Xalq artisti Aygün Kazımova "Səhər mərkəzi" proqramının yeni mövsümdəki ilk buraxılışının qonağı olub. Verlişdə müğənni ona pərəstişkarlarının ünvanlandığı sualları cavablandırıb.**

Adalet.az xəbər verir ki, sənətçi fanatlarından birinin təhsil haqqısını ödəyəcəyini deyib. Belə ki, bir pərəstişkarı ondan təhsil haqqını ödəməsini istəyib. O, isə buna razılaşıb və edəcəyinə söz verib.

"Qızını döyməyib, dizini döyüb" sualına isə Kazımova "Bəli, döymüşəm. Əlbəttə, olub" cavabını verib.

"Ödənməyən kreditləriniz var" sualına isə müğənni "Ödənməyən kreditlərim var, bunu əvvəl də demişdim" reaksiyasını verib.

Xalq artisti həmin verlişdə müğənni İlqar Xəyalla bağlı sirri də açıqlayıb.

İfaçı Latviyada keçirilən "Yurmala-89" festivalı ərəfəsində başlarına gələni etiraf edib. Bu haqda Kazımova İ.Xəyalın qorxudan səhnəyə çıxmadığını deyib: "Qaya" orkestrinin rəhbəri Teymur Mirzəyev bizi Bakıdan yola saldı. Dedilər, yer tutmasan qayıtma. Dörd nəfər getdik: Samir Bağırov, İlqar Xəyal, Sevil Hacıyeva və mən. İlqar Xəyalın nömrəsi birinci idi, həyəcandan qorxdu və səhnədən imtina etdi, çıxmadı. İlqar, incimə, amma düzünü deməliyəm. Sonra yenidən müraciət etdi ki, özümü toparladım, çıxım səhnəyə. Amma rejissor razılaşmadı. Samir Bağırov kəsildi. Sevil keçdi oldu diplomat. Mən isə yarışmanın başına nə oyun açdım görmüsüz. Düz eləmişəm, mikrofonu elə qoydum, onsuz kəsildim".

**Əntiqə Rəşid**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən Konvoy taborunun Avtonəqliyyat xidmətinin böyük sürücü-mühafizəçisi, baş çavuş Vəliyev Samir İsax oğluna verilən xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.


Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**



Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**



**Tiraj: 1500**
**Sifariş: 131**
Çapa imzalanmışdır:
18.10.2021